## Mingəçevir su hövzəsində zəlzələ baş verib



**Aprelin 5-də Mingəçevir seysmoloji stansiyasından 33 kilometr şimal-qərbdə - Mingəçevir su hövzəsində zəlzələ qeydə alınıb.**

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən bildirilib ki, yerli vaxtla saat 11:37-də qeydə alınan zəlzələnin ocağı 20 kilometr dərinlikdə yerləşib.

*Maqnitudası 3.1-ə bərabər olan zəlzələ hiss olunmayıb.*

## Qubada fəhlə cərəyan vurması nəticəsində ölüb

**Dünən 1985-ci il təvəllüdlü Turab Nəsirovun ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Quba rayon prokurorluğundan verilən məlumata görə, ilkin araşdırma zamanı "DOST İş Mərkəzi" MMC xətti ilə "Azəriqaz" İB-nin Xaçmaz Regional Qaz İstismar İdarəsinin Quba Xidmət Sahəsinə fəhlə kimi təhkim edilmiş Turan Nəsirovun rayonun Amsar kəndi ərazisində elektrik dirəyindən ötürücü naqili kəsmək istəyən zaman cərəyan vurması nəticəsində ölməsinə əsaslı şübhələr müəyyən edilib.



## Əfv Komissiyası 100-dən artıq müraciətə baxıb

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib. İclasda əfvlə bağlı 100-dən artıq müraciətə baxılıb.**

Qeyd edək ki, indiyədək iclaslarda əfvlə bağlı 1 300-ə yaxın müraciətə baxılıb.

Azərbaycanda ötən il imzalanan sonuncu əfv sərəncamına əsasən, ümumilikdə 213 nəfər əfv edilib. Azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 168 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib, 36 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 3 nəfər cəzadan azad edilib. Həmçinin azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 6 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad olunub.


❒ № 58 (5819) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 aprel 2023-cü il (cümə axşamı)


# Düyməyə basılıb

## Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması an məsələsidir



## Tacikistan və Azərbaycan iki sabit dövlətdir

### Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Tacikistan Prezidenti bəyanatla çıxış etdi.**

*Prezident Emoməli Rəhmonun bəyanatı*

- Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevi Tacikistan Respublikasına dövlət səfəri münasibətilə bir daha səmimi-qəlbdən salamlamaq istərdim.

(səh.2)



## Ali Məhkəmənin sədri işə başladı

### Samir Nuriyev İnam Kərimovu kollektivə təqdim edib



**Aprelin 5-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Ali Məhkəmənin sədri İnam Kərimovu kollektivə təqdim edib.**

Samir Nuriyev təqdimat mərasimində çıxış edərək müstəqil Azərbaycanın müasir məhkəmə sisteminin inkişafının ilk növbədə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib.

(səh.2)

## Azərbaycan Qarabağda prosesi tez yekunlaşdırmağa çalışır

**"Mayın 10-na qədər Azərbaycanın aidiyyəti qurumlarının Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qoyula bilər". Bunu politoloq Məhəmməd Əsədullazadə deyib.**

Onun sözlərinə görə, Azərbaycan Laçın yolu ətrafında və Ermənistanla şərti sərhəddə mövqelərini möhkəmləndirir: "Eyni zamanda Azərbaycan Ordusu Qarabağın dağlıq hissəsində alternativ yollara nəzarəti bərpa etməklə, separatçılar üzərində təzyiqləri gücləndirib. Deməli olar ki, bütün yollar nəzarət altındadır və Ermənistanla separatçılar arasındakı hərbi əlaqə tam dayandırılıb. Qənaətimcə, mayın 10-na kimi Ermənistanla sərhəddə, Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qoyula bilər".

(səh.3)

# Laçın yolunda daha bir örnək

## Həkimlərimiz erməni xəstələrin həyatını xilas etdi



**Ekofəallarımızın aksiyasının keçirildiyi Laçın yolunda diqqətçəkən vəziyyət yaşanıb. Rusiya sülhməramlıları Ermənistanın Gorus şəhərindən bir qrup ermənini Qarabağa aparmaq istəsələr də, onların keçidi ilkin olaraq rəzılaşdırılmayıb. Vəziyyət aydınlaşdığı müddət ərzində səhhəti pisləşən üç nəfər erməniyə tibbi yardımın göstərilməsi zərurəti yaranıb.**

Azərbaycan tərəfi ermənilər üçün təcili tibbi yardım maşını təşkil edib və səhhəti korlanmış şəxslərə həkimlərimiz yerindəcə köməklik göstəriblər. Daha sonra Azərbaycanın təcili tibbi yardım maşını xəstələri Xankəndiyə çatdırıb.

(səh.3)



## Bakı-Salyan yolunda ağır qəza

### 3 qadın öldü, iki nəfər xəsarət aldı

**Bakı-Salyan yolunda ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib.**

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsindən verilən məlumata görə, hadisə magistral yolun 29-cu kilometrliyində qeydə alınıb. İlkin məlumata görə, "Hyundai Accent" markalı 99-TN-320 dövlət nömrə nişanlı avtomobil xarab olaraq yolun kənarında dayanıb. Eyni istiqamətdə hərəkətdə olan "KamAZ" markalı 42-BM-084 dövlət nömrə nişanlı avtomobil ona çırpılıb. Hadisə nəticəsində "Hyundai Accent" avtomobilində olan üç nəfər qadın sərnişin həlak olub. Sürücü 1 qadın və 1 azyaşlı uşaq isə xəsarət alıb.

## 4 nəfər vəfat edib

### Azərbaycanda yoluxanların sayı 100-ü keçdi




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 101 yeni yoluxma faktı qeydə alınıb, 93 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 830 056 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 819 403 nəfər müalicə olunaraq sağalıb, 10 193 nəfər vəfat edib, aktiv xəstə sayı 460 nəfərdir.

*Ölkədə son sutka ərzində 1732, hazırkı dövrədək isə 7 564 431 test aparılıb.*

## Bəzi yollarda sürət həddi endirildi



**Bakıda daha iki yolda sürət həddinin endirilməsi ilə əlaqədar olaraq müvafiq yol nişanları quraşdırılıb.**

Bu barədə Bakı Nəqliyyat Agentliyindən məlumat verilib.

Bildirilib ki, Babək prospektində müvafiq yol nişanları quraşdırılaraq maksimum sürət həddi 60-80 km/saatdan 60 km/saat-a, Qala-Pirallahı yolunda isə 100 km/saatdan 90 km/saata endirilib.



## Gözləyirik, susan deputatlar da İrandan danışacaq

Azər Həsrət: "İctimaiyyət kimin bu məsələyə necə reaksiya verəcəyi ilə maraqlanır"

(səh.4)



## Turan coğrafiyasında birliyin təməlləri atılıb

Gələcəkdə Aİ kimi bir model formalaşdırılacaq, bu modelin isə ən əhəmiyyətli rollarından biri Azərbaycana məxsusdur

(səh.2)



# Tacikistan və Azərbaycan iki sabit dövlətdir

## Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

### *Emoməli Rəhmon: "Azərbaycan Prezidentinin səfəri xalqlarımızın çoxəsrlik ünsiyyət tellərinin məntiqi davamdır"*

### *İlham Əliyev: "Gələcəkdə bu səfərlər daha intensiv olacaq, birlikdə işləyəcək, dostluq edəcək və birgə gələcəyimizi quracağıq"*

**Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər.**

**Əvvəlcə Tacikistan Prezidenti bəyanatla çıxış etdi.**

*Prezident Emoməli Rəhmonun bəyanatı*

- Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevi Tacikistan Respublikasına dövlət səfəri münasibətilə bir daha səmimi-qəlbdən salamlamaq istərdim.

Əvvəlcə qeyd etmək istərdim ki, diplomatik münasibətlərin otuz ili ərzində Tacikistan və Azərbaycan səmərəli qarşılıqlı fəaliyyət mexanizmləri qura və bu gün qardaş xalqlarımızın rifahına xidmət edən sanballı nəticələr əldə edə biliblər. Buna çox cəhətdən əsası Azərbaycan xalqının görkəmli oğlu və mənim dostum, böyük yoldaşım Heydər Əliyev tərəfindən qoyulmuş sıx, qarşılıqlı etimada əsaslanan əlaqələr şərait yaradır. Gələn ay Heydər Əliyevin 100 illiyini Tacikistanda da qeyd edəcəyik.

Mən qardaş Azərbaycanın bu böyük dövlət xadimi ilə ünsiyyətimizi həmişə səmimiyyətlə xatırlayıram. Heydər Əliyev ölkə üçün ən taleyüklü vaxtda həqiqətən öz şanlı xalqının milli lideri oldu və ölkəni sabitlik, inkişaf yoluna çıxardı.

Hörmətli İlham Heydər oğlunun səfəri həm bu əlaqələrin, həm də xalqlarımızın çoxəsrlik qarşılıqlı ünsiyyət tellərinin məntiqi davamıdır. Bu əlaqələrin əsasını hər bir tacikin evində dərin hörmət bəslənən, misli-bərabəri olmayan Nizami Gəncəvi qoyub. Buna görə də bizim danışıqlar, həmişəki kimi, qurucu xarakter daşıyıb, ikitərəfli qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə və dərinləşdirilməsinə yönəlib. Danışıqların gedişində biz ikitərəfli münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini ətraflı nəzərdən keçirdik, bizim üçün aktual olan bütün məsələlərə dair fikir mübadiləsi apardıq. Bu gün imzalanmış ikitərəfli sənədlər əlaqələrimizin hüquqi bazasının möhkəmləndirilməsinə və tamamlanmasına yönəlib.

Biz çoxşaxəli əlaqələrimizin kompleksinin tərkib hissələri kimi parlamentlərarası əməkdaşlığın fasiləsiz xarakterini qeyd etdik. İki ölkənin parlamentlərinin rəhbərlərinin qarşılıqlı səfərləri nəticəsində bu əməkdaşlıq yeni məzmun kəsb edib.

Ticari-iqtisadi sahədə qarşılıqlı əlaqələri ətraflı müzakirə etdik. Razılaşdıq ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi tərəflərin malik olduğu potensiala uyğun deyil. Bununla əlaqədar əmtəə dövriyyəsinin artırılmasına dair təxirəsalınmaz tədbirlər görülməsi barədə razılığa gəldik.

Danışıqlar çərçivəsində biz investisiyalar, sənaye kooperasiyası, kənd təsərrüfatı, nəqliyyat sahələrində və yanacaq-energetika kompleksində qarşılıqlı fəaliyyətin istiqamətləri üzərində ayrıca dayandıq.

Sənaye kooperasiyası sahəsində yüngül, kimya və dağ-mədən sənayesi, tikinti materiallarının istehsalı, alüminiumun, pambıq lifinin, qiymətli və yarımqiymətli daşların və metalların emalı sahələrində birgə layihələrin həyata keçirilməsi üçün böyük imkanlar olduğunu qeyd etdik.

Energetika sektorunda Tacikistanın neft-qaz yataqlarının işlənilməsində Azərbaycan şirkətlərinin iştirakında maraqlı olduğumuzu təsdiq etdik.

Biz Azərbaycanın əlverişli tranzit imkanlarından fəal istifadə olunmasını davam etdirəcək, Tacikistanın dövlət və kommersiya strukturlarının yükdaşıma həcmlərini artıracağıq.

Danışıqlarda münasibətlərimizin humanitar istiqaməti mühüm yer tutdu. Təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığı genişləndirməyə qarşılıqlı hazır olduğumuzu təsdiq etdik.

Regional və beynəlxalq xarakterli aktual məsələlərin bütün məcmusuna dair fikir mübadiləsi apardıq. Beynəlxalq və regional təşkilatlar məkanında bundan sonra da qarşılıqlı fəaliyyətin vacib olmasını qeyd etdik.

Çoxtərəfli məkanlarda, ilk növbədə, BMT-də bir-birimizin namizədliyimizi və təşəbbüslərimizi qarşılıqlı dəstəkləmək praktikasını davam etdirmək barədə razılığa gəldik.

Biz suya və iqlimə dair Tacikistanın irəli sürdüyü qlobal təşəbbüslərin dəstəklənməsinə görə Azərbaycan tərəfə minnətdarlığımızı bildirdik.

Danışıqlarda təhlükəsizlik məsələləri diqqət mərkəzində oldu. Biz beynəlxalq terrorizmə, ekstremizmə, narkotiklərin və silahların qanunsuz dövriyyəsinə, kibercinayətkarlığa və transmilli mütəşəkkil cinayətkarlığın digər formalarına qarşı mübarizədə əməkdaşlığın möhkəmləndirilməsinə tərəfdar olduğumuzu bildirdik. Beynəlxalq mövzuları və bizim regionlarda vəziyyəti ətraflı müzakirə etdik.

Bugünkü danışıqların yekunları ölkələrimiz arasında münasibətlərin inkişafına böyük nikbinliklə və xoş ümidlərlə baxmağımıza imkan verir.

İndi sözü böyük məmnuniyyətlə əziz qonağımız, hörmətli İlham Heydər oğlu Əliyevə verirəm. Buyurun.

* * *

**Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

*Prezident İlham Əliyevin bəyanatı*

- Hörmətli Emoməli Şərifoviç.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, qardaş Tacikistana dövlət səfərinə dəvətə görə Tacikistan Prezidentinə təşəkkürümü bildirmək istərdim. Mən Tacikistana ilk dəfə gəlmirəm. Bu, mənim üçüncü rəsmi səfərimdir. Mən Tacikistana beynəlxalq tədbirlərdə iştirak etmək üçün də gəlmişəm.

Emoməli Şərifoviç, ilk növbədə, Sizi və bütün qardaş Tacikistan xalqını Tacikistanın sosial-iqtisadi inkişafında böyük nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Onu da qeyd etmək istərdim ki, paytaxtınız, ilbəil gözəlləşən Düşənbə şəhərinin coşqun inkişafını görəndə çox sevindim. Mən axırıncı dəfə Düşənbəyə təqribən beş il bundan əvvəl gəlmişdim və əminliklə deyə bilərəm ki, bu qısa müddət ərzində mühüm müsbət dəyişikliklər baş verib. Həm gördüklərim, həm də Tacikistan Prezidentinin gələcək planları barədə mənə dedikləri ona dəlalət edir ki, Tacikistanın paytaxtı daha gözəl, qonaqlar və sakinlər üçün daha rahat olacaq.

Atam Heydər Əliyevin xatirəsinə səmimi münasibətə görə Tacikistan Prezidentinə təşəkkürümü bildirmək istərdim. O, Emoməli Şərifoviç Rəhmon ilə birlikdə ölkələrimiz arasında dövlətlərarası münasibətlərin formalaşmasının təşəbbüskarı olub və mahiyyət etibarilə onlar bu münasibətlərin əsasını qoyublar.

Bu gün ölkələrimiz arasında qardaşlıq münasibətlərinin uğurlu inkişafı məhz 1990-cı illərin əvvəllərindəki fəaliyyətin nəticəsidir. O vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, təəssüf ki, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Ən dəhşətli müharibə qardaş qırğınıdır. Həm Prezident Rəhmon, həm də Prezident Heydər Əliyev, - hərəsi öz ölkəsində, - qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna nail oldular. Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı.

Buna görə düşünürəm ki, xalqlarımızın milli maraqlarına əsaslanan siyasət yürüdən ölkələrimizin nümunəsi ona dəlalət edir ki, hətta inkişafın ən aşağı nöqtəsində olduqda da müdrik rəhbərlik sayəsində böyük nəticələr qazanmaq olar. Tacikistan və Azərbaycan isə keçmiş sovet respublikaları arasında müstəqillik yoluna ən pis və ən ağır şəraitdə qədəm qoyublar. Təbii ki, o dövrü yaxşı bilən adamlar bunu təsdiq edə bilərlər. Lakin həm Azərbaycanda, həm də Tacikistanda gənc nəsil də bunu bilməlidir. Bizim bugünkü uğurlu inkişafımız, necə deyərlər, göydən düşməyib, bunun arxasında məhz böyük liderlərin, xalqlarımızın liderlərinin əməyi durur. Onlar özləri üçün, öz həyatları üçün riskə gedərək dinc və uğurlu inkişafı təmin etmək naminə əllərindən gələni ediblər.

Bu barədə burada - Tacikistanda, Heydər Əliyevin xatirəsi ehtiramla yad edilən qardaş ölkədə danışmaq mənə xüsusilə xoşdur. Emoməli Şərifoviçin dediyi kimi, gələn ay biz Azərbaycan dövlətçiliyinin banisinin anadan olmasının 100 illiyini qeyd edəcəyik. Mən tacik qardaşlarımıza təşəkkür edirəm ki, Heydər Əliyevin xatirəsi Tacikistanda da qeyd ediləcək.

Emoməli Şərifoviç danışıqların bütün mövzularını işıqlandırdı. Hesab edirəm ki, bu gün biz çox səmərəli danışıqlar apardıq, həm təkbətək, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşlərdə gələcək qarşılıqlı fəaliyyətimizin konkret məsələlərini müzakirə etdik. Emoməli Şərifoviçin qeyd etdiyi bütün istiqamətlər üzrə necə irəliləmək barədə dəqiq təsəvvürümüz var. Nəqliyyat-logistika sahəsinə, sənaye kooperasiyasına, investisiya layihələri ilə bağlı məsələlərə dair konkret tapşırıqlar verilib. Biz Tacikistanda investisiya layihələrini ciddi nəzərdən keçirməyə hazırıq. Ona görə ki, əvvələn, Tacikistan bizə yaxın ölkədir, ikincisi, sabitlik hökm sürən ölkədir. İnvestisiyalar yalnız sabitlik və yaxşı investisiya şəraiti olan ölkələrə yönəldilir. Çoxsaylı xarici şirkətlər tərəfindən Tacikistanda fəal sərmayə qoyulması ona dəlalət edir ki, investisiyalar, o cümlədən xarici investisiyalar dövlət tərəfindən qorunur.

Mən əsla şübhə etmirəm ki, səfərin nəticələrinə əsasən ən yaxın vaxtda konkret addımlar atılacaq. Biz hökumətlərarası komissiyanın növbəti iclasını bu il Tacikistanda keçirmək barədə razılığa gəldik. Əminəm ki, hökumətlərarası komissiyanın iclasına qədər bizim məhz nəqliyyat-logistika qarşılıqlı əlaqələri, investisiya siyasəti, sənaye kooperasiyası məsələlərinə dair nümayəndə heyətlərinin üzvlərinə verdiyimiz bütün tapşırıqlar yerinə yetiriləcək. Əminəm ki, nəticələr bizi sevindirəcək.

Məhz mədəni sahədə qarşılıqlı əlaqələrimizin möhkəm təməlini xüsusi qeyd etmək istərdim. Xalqlarımız əsrlər boyu dostluq, həmrəylik şəraitində yaşayıb, dostluq ediblər. Təsadüfi deyil ki, Azərbaycanda tacik mədəniyyətini, Tacikistanda Azərbaycan mədəniyyətini çox yüksək qiymətləndirirlər. Demək istərdim ki, tacik xalqının görkəmli oğlu Rudəkinin abidəsinin azərbaycanlı heykəltaraş Fuad Əbdürrəhmanov tərəfindən yaradılması heç də təsadüfi deyil. Bu abidə 1960-cı illərdə Düşənbədə qoyulub.

Digər məşhur Azərbaycan heykəltaraşı Ömər Eldarov Sədrəddin Ayninin və İbn Sinanın abidələrini yaradıb. Yəni, bunlar çox şeyə dəlalət edir. Tacik xalqının görkəmli nümayəndələrinin abidələrinin yaradılmasının Azərbaycan nümayəndələrinə etibar edilməsi böyük etimad, dostluq, qardaşlıq deməkdir. Biz onu da bilirik ki, Tacikistanda dahi Azərbaycan şairi, doğma Gəncədə doğulmuş, yaşamış və orada dünyasını dəyişmiş Nizami Gəncəvini sevirlər və ona ehtiram bəsləyirlər. Bu mədəni bünövrə bu gün bütün istiqamətlər üzrə fəal qarşılıqlı əlaqələr üçün zəmin yaradır. Əminəm ki, biz bu gün təhsil sahəsində də, başqa sahələrdə də qəbul etdiyimiz bütün qərarları yerinə yetirəcəyik.

Onu da demək istərdim, biz məmnuniyyətlə qeyd etdik ki, Tacikistandan olan 50-yə yaxın kursant bu gün Azərbaycanın Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin tədris müəssisələrində təhsil alır. Biz tacik tələbələrin sayının artırılmasına şərait yaratmağı qərara aldıq. Əlbəttə, əminəm ki, azərbaycanlı tələbələr də böyük sevinc və istəklə burada, Tacikistanda təhsil ala bilərlər.

Mən əziz dostum, qardaşım Emoməli Şərifoviç Rəhmona qonaqpərvərliyə, əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Emoməli Şərifoviç, fürsətdən istifadə edib Sizi Azərbaycana səfərə dəvət etmək istərdim.

Emoməli Şərifoviç Azərbaycana üç rəsmi səfər edib, mən də Tacikistana üç rəsmi səfər etmişəm. Bu, bizim münasibətlərin dinamikasına dəlalət edir. Fikrimcə, gələcəkdə bu səfərlər daha intensiv olacaq, birlikdə işləyəcək, dostluq edəcək və birgə gələcəyimizi quracağıq. Sağ olun.

**Prezident Emoməli Rəhmon:** Sağ olun, İlham Heydər oğlu. Məni Azərbaycan Respublikasına səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. İlk münasib imkan yaranan kimi Sizin lütfkar dəvətinizdən mütləq istifadə edəcəyəm.

# Turan coğrafiyasında birliyin təməlləri atılıb

## Gələcəkdə Aİ kimi bir model formalaşdırılacaq, bu modelin isə ən əhəmiyyətli rollarından biri Azərbaycana məxsusdur

**Aprelin 5-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.**

*Görüşdə çıxış edən Prezident Emoməli Rəhmon deyib:*



"Hörmətli İlham Heydər oğlu, Tacikistana xoş gəlmisiniz. Xalqlarımız arasında qarşılıqlı münasibətlərin qədim tarixi və xoş ənənələri var. Sevindirici haldır ki, bu gün bizim dövlətlərarası münasibətlər bir çox istiqamətlər üzrə inkişaf edir. Biz bu münasibətlərin bütün formatlarda daha da möhkəmlənməsinə böyük əhəmiyyət veririk.

Bu gün sizinlə ölkələrimizin qarşılıqlı əlaqələrinin vəziyyətini və perspektivlərini, habelə beynəlxalq və regional məsələləri müzakirə etməyə hazıram.

Bir daha xoş gəlmisiniz. Ölkəmizdə vaxtınızın xoş keçməsini arzu edirəm".

**Prezident İlham Əliyev diqqətə çatdırıb:** "Sağ olun, Emoməli Şərifoviç. Əvvələn, dəvətə görə təşəkkür edirəm. Qardaş, dost Tacikistana yenidən gəlməyimə çox şadam.

Siz qeyd etdiyiniz kimi ölkələrimiz arasında münasibətlərin yaxşı tarixi və əminəm ki, çox yaxşı gələcəyi var. Biz həm beynəlxalq məkanlarda, beynəlxalq strukturlar çərçivəsində və əlbəttə, ikitərəfli formatda çox istiqamətlər üzrə əməkdaşlıq edirik. Əməkdaşlığın, o cümlədən ticari-iqtisadi, sənaye kooperasiyası, nəqliyyat sahələrində dərinləşməsi üçün çox yaxşı perspektivlər var. Əlbəttə, biz bunu ətraflı müzakirə edəcəyik. Nümayəndə heyətlərinin üzvləri də öz aralarında fəal diskussiyalar aparacaqlar. Əminəm ki, səfərin nəticələri uğurlu olacaq. Biz birgə fəaliyyətimizin sonrakı proqramını müəyyən edəcəyik. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm".

**Qarabağ müharibəsindən sonra bölgədə yeni bir geosiyasi reallığın yarandığını deyən siyasi şərhçi Turab Rzayev "Şərq"ə vurğulayıb ki, Azərbaycan və onun əsas müttəfiqi Türkiyənin Qafqazda və Mərkəzi Asiyada strateji əhəmiyyəti artdı:** "Artıq bir çox Mərkəzi Asiya dövlətləri açıq şəkildə gördülər ki, onlar resurslarını səfərbər edib, öz müttəfiqlərinə arxalanaraq daha böyük siyasi dividend əldə edə bilərlər. Bu yeni dalğa hazırkı geopolitik proseslər fonunda bütünlüşməyə doğru gedir. Artıq bir tərəfdə Qərb bloku (Böyük Britaniya, ABŞ, İsrail və başqa müttəfiqləri), digər tərəfdə isə Şərq bloku (Rusiya, Çin, İran və.s ölkələr) formalaşır. Bunun ortasında yer alan Mərkəzi Asiya ölkələri isə sanki bu geopolitik qarşıdurmada sahibsiz və zəif vəziyyətdə qalır. Ona görə də tarixi Turan coğrafiyasının biri-birinə inteqrasiya etməsi və əlaqələrinin möhkəmlənməsi çox vacibdir".

**Analitik qeyd edib ki, Prezident İlham Əliyevin Tacikistan səfəri digər türk ölkələrinə olan səfərin davamı kimi dəyərləndirilməlidir:** "Məhz bu səfərlərlə Turan coğrafiyasında birliyin təməlləri atılıb. Xatırlayırsızsa, Azərbaycan Türkmənistanla bütün mübahisəli məsələləri həll etdi. Artıq biz Türkmənistandan dəniz altı qaz və neft kəmərinin çəkilməsini müzakirə edirik. Qazaxıstan ilə münasibətlərimiz inkişaf etdi. Onlar artıq öz neftlərini Rusiya yox, Azərbaycan üzərindən satmaq istəyir.

Tacikistan isə Mərkəzi Asiyanın böyük ölkələrindən biridir. Bu coğrafiya gələcəkdə biri-birinə inteqrasiya edib, daxilinə Əfqanıstan və Pakistanı da qataraq öz daxilində yeni bir struktur formalaşdıracaq. Yəni gələcəkdə Aİ kimi bir model formalaşdırılacaq, bu modelin isə ən əhəmiyyətli rollarından biri Azərbaycana məxsusdur.

Mən düşünürəm ki, Azərbaycan Prezidentinin Tacikistan səfəri böyük bir geosiyasi xəritənin formalaşdırılması ilə bağlıdır. Əlbəttə, bizim Tacikistanla Sovet dövründən əlaqələrimiz var və bu əlaqələr mədəni, siyasi, iqtisadi cəhətdən inkişaf etdiriləcək.

Ümumiyyətlə, böyük portretə baxaraq, gələcəkdə Qafqaz və Mərkəzi Asiya birliyində Azərbaycanın Türkiyə ilə birlikdə aparıcı rol oynayacağını söyləmək olar".

**Nihat Müzəffə**




# Ali Məhkəmənin sədri işə başladı

## Samir Nuriyev İnam Kərimovu kollektivə təqdim edib

**Aprelin 5-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Ali Məhkəmənin sədri İnam Kərimovu kollektivə təqdim edib.**

Samir Nuriyev təqdimat mərasimində çıxış edərək müstəqil Azərbaycanın müasir məhkəmə sisteminin inkişafının ilk növbədə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Diqqətə çatdırıb ki, Ulu Öndərin rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hakimiyyətinin hakimiyyətlər bölgüsündə yerini, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsip və şərtlərini müəyyən edib.

Prezident Administrasiyasının rəhbəri qeyd edib ki, Prezident İlham Əliyev hüquqi dövlət quruculuğu prosesini uğurla davam etdirərək məhkəmə-hüquq sistemində islahatları daha da dərinləşdirib. Qanunvericilik bazası təkmilləşdirilib, yeni regional məhkəmələr, o cümlədən kommersiya məhkəmələri və inzibati məhkəmələr təsis edilib, hakimlərin sayı artırılıb, onların sosial müdafiəsi gücləndirilib, məhkəmələrin maddi-texniki bazası müasirləşdirilib, bütün bu kompleks tədbirlər məhkəmələrin müstəqilliyini daha da möhkəmləndirib.

Samir Nuriyev Ali Məhkəmənin ədalət mühakiməsi institutlarının inkişaf etdirilməsi sahəsində fəaliyyətini bundan sonra daha da gücləndirəcəyinə, hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün bütün zəruri tədbirləri həyata keçirəcəyinə və hüququn aliliyinin təmin edilməsi istiqamətində öz səylərini əsirgəməyəcəyinə inandığını bildirib, bu işdə yeni təyin olunmuş sədrə və kollektivə uğurlar arzulayıb.

# Laçın yolunda daha bir örnək

## Həkimlərimiz erməni xəstələrin həyatını xilas etdi

**Ekofəallarımızın aksiyasının keçirildiyi Laçın yolunda diqqətçəkən vəziyyət yaşanıb. Rusiya sülhməramlıları Ermənistanın Gorus şəhərindən bir qrup erməni Qarabağa aparmaq istəsələr də, onların keçidi ilkin olaraq razılaşdırılmayıb. Vəziyyət aydınlaşdığı müddət ərzində səhhəti pisləşən üç nəfər erməniyə tibbi yardımın göstərilməsi zərurəti yaranıb.**



*Azərbaycanın təcili tibbi yardım maşını halı pisləşənləri sağ-salamat Xankəndiyə çatdırıb*

Azərbaycan tərəfi ermənilər üçün təcili tibbi yardım maşını təşkil edib və səhhəti korlanmış şəxslərə həkimlərimiz yerindəcə köməklik göstəriblər. Daha sonra Azərbaycanın təcili tibbi yardım maşını xəstələri Xankəndiyə çatdırıb. Xankəndi-Laçın yolunda halı pisləşən Qarabağ ermənilərinə tibbi yardım göstərən Şuşa modul tipli xəstəxanasının həkimi Vilad Əliyev deyib ki, onlara yerindəcə ilkin tibbi yardım göstərilib: "Daha sonra onları bizim nəzarətimiz altında Xankəndidə xəstəxanaya sağlam şəkildə çatdırdıq". Azərbaycanlı həkim Xankəndiyə daxil olanda sevinc hissi keçirdiklərini deyib: "Postda ermənilərlə Azərbaycan dilində danışdıq. Erməni xəstələrin həyatını xilas etdik. Xəstəxanaya təhvil verdikdən sonra geri, Şuşaya qayıtdıq". Təbii ki, Azərbaycan tərəfi hər zaman olduğu kimi yenə də öz humanistliyini nümayiş etdirib. Lakin məsələ ondadır ki, Rusiya sülhməramlı kontingentinin Gorusdan gətirdiyi erməniləri Xankəndiyə keçirmək cəhdi əvvəlcədən razılaşdırılmadığı üçün Laçın yolunda müəyyən yubanma baş verib. Ekspertlərin fikrincə, bu, birbaşa təxribat cəhdidir. Rus sülhməramlılarının yük maşınlarında Ermənistandan gələn 27 vətəndaş var imiş. Onların arasında təkcə qadınlar, qocalar və uşaqlar deyil, həm də çağırış yaşına çatmış kişilər olub. Vəziyyətin aydınlaşdırılmasının gecikməsi nəticəsində bəzi sərnişinlər özlərini pis hiss etdiklərini deyiblər. Amma əvvəlcədən yazılmış ssenariyə əsasən, iki qadın avtomobildən düşüb və rusiyalı hərbçilərin əhatəsində onlarla "təsadüfən" səyahət edən jurnalistə müsahibə verməyə başlayıblar. Yəni Rusiya və Ermənistan ortaq teatr səhnəsi düzəltmək istəyiblər.

Düşünüblər ki, danışıqlar aparılan zaman ekofəallar ermənilərin olduğu maşınlara girəcək və bu zaman erməni uşaqlar, qadınlar səsini başına ataraq vay-şivən qoparacaqlar. Beləcə, köhnəlmiş "blokada" tamaşasına dünyanı inandırmağa çalışacaqlar. Bütün bunlara baxmayaraq, onların istəyi baş tutmayıb. Azərbaycan tərəfi təmkinli davranıb və təxribata uymayıb. Lakin bu da erməni tərəfini saxta məlumatlar yaymaqdan çəkindirməyib, guya, azərbaycanlıların avtomobillərdən birinə daxil olması ilə bağlı uydurma xəbərlər tirajlayıblar.

**Millət vəkili Elman Məmmədov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Azərbaycan tərəfi öz humanistliyini, insanpərvərliyini bir daha nümayiş etdirdi. Deputat vurğulayıb ki, bizim həkimlərə məlumat daxil olan kimi dərhal, ləngimədən tibbi köməklərini çatdırıblar:** "Ermənilərə yerində ilkin tibbi yardım göstəriləndən sonra rus sülhməramlılarının müşayiəti ilə bizim təcili tibbi maşınla sağ-salamat Xankəndiyə aparılıblar. Biz Qarabağda yaşayan erməniləri Azərbaycan vətəndaşları saydığımız üçün onların təhlükəsizliyinin, sağlamlığının qeydinə qalırıq. Yəni qətiyyən demirik ki, "bu, ermənidi, ona kömək etmək olmaz". Ancaq burada başqa məqamlar da var. Sülhməramlılar 27 ermənini Laçın yolu ilə hansı məqsədlə gətiriblər? Əgər onlar Qarabağ yox, Ermənistanda yaşayan ermənilərdirsə, Gorusdan gətirilibsə, bu, təxribat xarakterlidir. Bəlkə orada Avropa İttifaqının "mülki missiyası"nın nümayəndələri də olub. Ermənipərəstliklə məşğul olan "Qırmızı Xaç"ın təmsilçiləri də foto çəkmək üçün fürsət gözləyiblər. Sonradan hay-küy salacaqlardı ki, "baxın, mülki ermənilər soyuğun günündə yolun ortasında saxlanılıb, azərbaycanlılar yolu bağlayıb, onları buraxmırlar, ermənilər də ölürlər, xəstələnirlər" və s. Ermənilər öz himayədarları vasitəsilə belə tələləri məharətlə qururlar. Hətta həmin erməniləri özləri öldürüb, suçu azərbaycanlıların üzərinə də ata bilərdilər. Azərbaycana qarşı növbəti fitnəkarlığı tətbiq edərdilər. Bəlkə də məqsədləri bu idi. Ancaq ermənilərin və onların arxasında duranların məqsədlərinə baxmayaraq, Azərbaycan tərəfi insani köməyini əsirgəmədi. Əməlimizlə də təsdiq etdik ki, biz ermənilərə sülh əlimizi uzadırıq. Deyirik ki, biz ermənilər kimi qəddar, riyakar deyilik. Göstəririk ki, əgər Azərbaycan vətəndaşlığını qəbul etsəniz, bütün problemləriniz həllini tapacaq, qayğınıza qalınacaq".

**İsmayıl Qocayev**

# Ukrayna ordusu əks-hücuma hazırlaşır

## Bu dəfə uğur qazana bilməzsə, ABŞ və Qərb Rusiyaya böyük güzəştlərin edilməyəcəyi sülh sazişi barədə düşünməyə başlayacaq

**Ukrayna Kreml rejimi və Rusiya Prezidenti Vladimir Putinlə sülh sazişlərinə razı olmayacaq. Bu sözləri Ukraynanın müdafiə naziri Oliksiy Reznikov deyib. Onun sözlərinə görə, müharibə bu il başa çata bilər: "Rusiya ilə sülh sazişi istisnadır.**



Ukrayna Prezidenti V.Zelenski Putinlə danışıqlar masası arxasına əyləşməyəcəyini söyləyib. Sosioloji sorğuların nəticəsi də göstərir ki, Ukrayna xalqı sülh yox, qələbə istəyir. Ona görə də bütün tərəfdaşlarımız başa düşməlidirlər: biz güzəştə getməyəcəyik". Nazir əlavə edib ki, hərbi-siyasi rəhbərlik yalnız Ukraynanın şərtləri daxilində danışıqlara hazırdır: "Bizim mövqeyimizdə dəyişiklik olmayacaq". Reznikov Ukraynadakı savaşı İkinci Dünya müharibəsindən sonra planetin ən böyük müharibəsi adlandırıb: "Bu savaş Qərblə Rusiyanın resurslarının mübarizəsidir". O, Ukrayna ordusunun rusların müdafiəsini yarmağa hazırlaşdığını da vurğulayıb: "Müasir texnologiyalardan istifadə etməklə düşmənin müdafiəsini yarmağa hazırlaşırıq. Amma əks-hücum əməliyyatlarına nə vaxt başlayacağımız dəqiq deyil. Bu, xüsusilə hava şəraitindən asılıdır". Xatırladaq ki, daha əvvəl Reznikov ehtimal edilən əks-hücum əməliyyatlarının aprel-mart ayında baş tuta biləcəyini söyləmişdi. Qeyd edək ki, Zelenski də Silahlı Qüvvələrin əks-hücum əməliyyatına hazırlaşdığını bildirib. Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu da deyib ki, tərəflər yaxın zamanda genişmiqyaslı əməliyyatlar həyata keçirməyə hazırlaşır və Türkiyə bundan təəssüflənir.

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə açıqlamasında bildirib ki, Ukrayna savaşının nə qədər davam edəcəyi rəsmi Kiyevdən asılı deyil. Rusiya ilə sülh danışıqları ilə bağlı qərarın verilmə hüququ da Ukraynanın hərbi-siyasi iradəsindən kənardadır. Yəni indiki situasiyada rəsmi Kiyev yalnız ABŞ və Qərbin direktivlərini icra etmək məcburiyyətindədir:** "Ona görə də hesab etmək olar ki, Ukrayna ordusu ABŞ və Qərbin maraqları tələb etdiyi müddətdə savaşı davam etdirməli olacaq. Qərb siyasi dairələrində sülh prosesi ilə bağlı hər hansı qərarın verilməsi üçün isə ilk növbədə Ukrayna ordusunun əks hücum əməliyyatlarına başlaması olduqca vacib faktordur. Çünki məhz həmin Ukrayna ordusunun əks hücum əməliyyatlarının nəticələrinə uyğun qərar verilə bilər. Yəni Ukrayna ordusu savaş meydanında uğur qazana bilməzsə, ABŞ və Qərb Rusiyaya böyük güzəştlərin edilməyəcəyi sülh sazişi barədə düşünməyə başlayacaq. Çünki son vaxtlar Ukrayna ordusuna hərbi dəstək verən ölkələrin silah-sursat rezervləri tükənməyə başlayıb. Bu baxımdan, qalib gələ bilməyəcəyi təqdirdə, Ukraynanın əvvəlki kimi, müdafiə edilməsi bir çox Qərb ölkələri üçün sərfəli olmaya bilər".

*E.Xalidbəyli vurğulayıb ki, Ukrayna ordusunun əks-hücum əməliyyatları uğurlu olarsa, onda vəziyyət tamamilə dəyişəcək:* "ABŞ və Qərb Ukraynanın Rusiyanı sülh sazişi deyil, məhz kapitulyasiya aktı imzalanmasına qədər savaşı davam etdirməsi üçün əlindən gələn hər şeyi edəcək. Yəni Ukrayna savaşının hansı istiqamətə yönələ biləcəyi təxminən avqust ayının sonlarına qədər aydınlaşmağa başlayacaq. Ukrayna savaşının nə qədər davam edəcəyi də böyük ehtimalla həmin mərhələdə məlum olacaq. Yəni hər şey Ukraynanın deyil, ABŞ və Qərbin maraqlarında ifadə olunur".

**İsmayıl Qocayev**

# Aşqabad İrandan cəmi 7 kilometr məsafədə yerləşir

## Türkmənistanda İsrail səfirliyinin açılması həm də İrana qarşı bir gedişdir

**İsrail yaxın günlərdə Türkmənistanın paytaxtı Aşqabadda səfirlik açmağı planlaşdırır. Türkmənistanın dövlət rəsmiləri də öz ölkəsində İsrail səfirliyinin açılmasına müsbət münasibət bildiriblər. İsrailin Türkmənistanla normal diplomatik münasibətləri olmasına baxmayaraq, Təl-Əviv bu günə kimi Aşqabadda səfirlik açmayıb.**



*Politoloq Turab Rzayev "Şərq"ə bildirib ki, sovet ittifaqı dağılandan sonra İsrail bölgədə yaranmış yeni geopolitik reallıqda özünə yer tutmağa çalışdı.* Çünki postsovet ölkələri ənənəvi müsəlman dövlətləri kimi radikal deyildilər və mədəni bağlarla Rusiyaya, Qərbə yaxın idilər. Ona görə də həmin ölkələrlə anlaşmaq İsrail üçün rahat idi: "Radikal, qatı dini təmayüllü xalqların olmaması İsrailə şərait yaradırdı ki, Təl-Əviv həm Qafqaz, həm də Mərkəzi Asiya ölkələri ilə rahat münasibətlər yaratsın. Ona görə də istər Cənubi Qafqazda, istərsə də Mərkəzi Asiya ölkələri ilə İsrailin normal əlaqələri formalaşdı. Sadəcə olaraq son dövrlərə qədər bəzi siyasi, geopolitik risklər nəzərə alınaraq, Orta Asiya ölkələrində İsrailin səfirliklərinin açılması geniş şəkildə həyata keçirilmirdi. Məsələn, Azərbaycanda İsrail səfirliyi var idi, amma bizim orada səfirliyimiz uzun müddət olmamışdı. Eyniylə Türkmənistanda da İsrail səfirliyi yox idi. Artıq bölgədə yeni mərhələ formalaşıb. Xüsusən, İkinci Qarabağ müharibəsindən sonra dəyişən geosiyasi reallıq var".

**T.Rzayev bəyan edib ki, dünyada Şərq və Qərb olmaqla iki fərqli qütb yaranıb:** "ABŞ-nin rəhbərlik etdiyi Qərb qütbü ilə yanaşı, Rusiya, İran və Çinin daxil olduğu Şərq qütbü də var. Bunların arasında isə şərti boşluq yaranıb. Bizim şərti olaraq Turan adlandırdığımız bölgələr, Qafqaz və Mərkəzi Asiya, o cümlədən Əfqanıstan və Pakistandan ibarət regionun gələcək taleyi tam formalaşmayıb. O baxımdan Türkiyənin rəhbərliyi ilə bölgə ölkələri bir-birinə inteqrasiya etməyə çalışırlar. Turan adında yeni geopolitik ittifaq formalaşır. İsrail də bölgədə öz gücünü artırmaq, yaranmış boşluqdan istifadə etmək istəyir. Türkmənistan İranla sərhəddir. İsrail İranın şimal-şərq sərhədində öz mövcudluğunu gücləndirməyə çalışır. Aşqabad şəhəri İrandan cəmi 7 kilometr məsafədə yerləşir. Yeni səfirliyin açılması həm də İrana qarşı nəzərdə tutulmuş bir gedişdir".

**İsmayıl Qocayev**




# Düyməyə basılıb

## Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması an məsələsidir

**"Mayın 10-na qədər Azərbaycanın aidiyyəti qurumlarının Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qoyula bilər". Bunu politoloq Məhəmməd Əsədullazadə deyib.**

Onun sözlərinə görə, Azərbaycan Laçın yolu ətrafında və Ermənistanla şərti sərhəddə mövqelərini möhkəmləndirir: "Eyni zamanda Azərbaycan Ordusu Qarabağın dağlıq hissəsində alternativ yollara nəzarəti bərpa etməklə, separatçılar üzərində təzyiqləri gücləndirib. Demək olar ki, bütün yollar nəzarət altındadır və Ermənistanla separatçılar arasındakı hərbi əlaqə tam dayandırılıb. Qənaətimcə, mayın 10-na kimi Ermənistanla sərhəddə, Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qoyula bilər".

*Azərbaycan Qarabağda prosesi tez yekunlaşdırmağa çalışır*

**Məhəmməd Əsədullazadənin fikirlərinin yerində olduğunu deyən hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə bildirib ki, Azərbaycan bu istiqamətdə son vaxtlar çox ciddi əməliyyat tədbirləri görür və uğurlu nəticələr əldə edir:** "Bunu tarix olaraq dəqiq şəkildə ifadə etmək mümkün deyil. Amma görünən odur ki, Azərbaycan tərəfi ən qısa zaman kəsiyində prosesi yekunlaşdırmağa çalışır. O ki qaldı Azərbaycanın nəzarət-buraxılış məntəqələri formalaşdırmasına Qərbdən və Rusiyadan gələcək reaksiyalara, biz hər iki tərəfin biri-biri ilə ciddi qarşıdurma yaşadığını deyə bilərik. Ona görə də iki tərəf də maksimum dərəcədə yüklərini azaltmağa çalışır. Ümumiyyətlə, Qərbdə Azərbaycan əleyhinə sərt mövqedə dayanan təkcə Fransadır. Digər ölkələr anti-Azərbaycan mövqeyində dayansalar da, bunu sərt formada etməkdən çəkinirlər. Fransa faktoru isə Qərbin ümumi yanaşmasını dəyişə bilməz. Hətta İtaliya, Böyük Britaniya kimi ölkələr bəzi məsələlərdə Azərbaycanı dəstəkləyirlər də deyə bilirik. Almaniya faktoru var idi ki, Prezidentin son səfərindən sonra onlar da Qarabağ məsələsini aktiv şəkildə müdafiə etmir. Yəni nə Azərbaycanın xeyrinə, nə də zərərinə addımlar atır".

**Ekspertin sözlərinə görə, Rusiya Ukrayna savaşında ciddi problemlərlə üzləşdiyi üçün, onun Cənubi Qafqazda aktiv rol alması inandırıcı görünmür:** "Həmçinin biz Ermənistanın Rusiyaya qarşı siyasət işləməyini də nəzərə almalıyıq. Ona görə də Rusiyanın bu hadisələr fonunda ciddi şəkildə anti-Azərbaycan mövqeyi ortaya qoyacağını hesab etmirəm. Sadəcə, Kreml proseslərə müdaxilə etməyə çalışacaq və bu hadisələrin dəyişməsində öz maraqlarının zədələnməsi istiqamətində addımlar atacaq. Bu da bizim üçün təhlükəli sayılmamalıdır. Çünki Azərbaycan dövləti nə Rusiya, nə Qərb, nə də uzaq Çin əleyhinə addımlar atır. Sadəcə öz maraqlarından çıxış edir. Hadisələrin isə yaxın zamanda rəsmi Bakının istəyi üzrə tamamlanacağını düşünürəm".

**Nihat Müzəffər**

# Qorxu və həyəcan yersizdir

## Azərbaycanda bankların kütləvi müflis olması kimi ciddi bir risk yoxdur



*Vətəndaşların bir-birinə baxıb banklardan əmanətlərini geri çəkməsi anlaşılan deyil*

**2021-ci ilin avqust ayından sonra sonra ilk dəfə əhalinin banklardakı əmanətlərinin həcmində azalma qeydə alınıb. Mərkəzi Bankın məlumatına görə, bu ayın 1-də əhalinin banklardakı əmanəti əvvəlki aydakı 11 milyard 928 milyon manatdan 11 milyard 901 milyon manata düşüb. Bu isə o deməkdir ki, ötən ay ərzində əhalinin əmanətləri 27 milyon manat azalıb.**

Ekspertlərin iddiasına görə, əhalinin əmanətlərinin azalmasının əsas səbəbi banklardakı depozit gəlirlərinin fevral ayından etibarən vergiyə cəlb edilməsi ilə bağlıdır. Belə ki, ümumi depozit faizlərində hiss edilən artımlar reallaşmadığı üçün müddəti başa çatmış bəzi depozitlərin vaxtının uzadılmaması və ya geri götürülməsi qeydə alınıb.

**İqtisadçı-ekspert Eldəniz Əmirovun "Şərq"ə açıqlamasına görə, əmanətlərin azalma tendensiyası davam edərsə, depozit faizləri yenidən vergidən azad edilməlidir:** "Bu verginin gətirdiyi zərər onun faydasından daha çox ola bilər. Sözügedən depozitlərin həcmini və onun faizlərdən tutulan vergilərin həcmini hazırkı göstəricilər üzrə hesablasaq görərik ki, bu məbləğ 80 milyon manat ətrafındadır. Yəni 1 fevraldan bərpa edilən vergilər nəticəsində o qədər də böyük olmayan yığım formalaşacaq. Amma onun yaratdığı həyəcan bank sektoruna daha çox zərər vura bilər.

Vergi tutulması qüvvəyə minən kimi əmanətlərin həcmində 27 milyon manat azalma baş verdi. Belə ki, 11,928 milyard manatdan 11,901 milyard manata endi. Əgər bu azalma davam edərsə, o zaman mütləq vergi güzəştləri yenidən bərpa edilməlidir. Çünki dünya bank sektorunda həyəcanlı anların yaşanması, ard-arda bankların müflis olması, Azərbaycan əmanətçisində qeyri-ixtiyari qorxu yaradır. Bu qorxunun üzərinə də 10 faizli vergini gələndə insanlar əmanətlərini banklardan geri çəkməyə qərar verirlər.

Bu qərar təbii ki, doğru qərar deyil. Yəni hazırda Azərbaycanda bankların kütləvi müflis olması kimi ciddi bir risk yoxdur. Qorxu və həyəcan yersizdir. Amma əmanətçilərin davranışı fundamental risklərə görə formalaşmır, kütlə davranışlarına görə daha çox formalaşır. Yəni sıravı əmanətçiyə Mərkəzi Bankın rəhbəri Taleh Kazımovun və ya Eldəniz Əmirovun sözündən daha çox ətrafdakıların davranışları təsir edir. Yəni adam baxır ki, insanlar əmanətlərini geri çəkir, qoy mən də çəkim. Əsassız yerə banklardan vəsaitlər geri çəkiləməyə başlayır. Beləcə, heç bir ciddi risk olmadan yaranmış boş bir qorxu, bir neçə ay sonra ciddi problemlər yaradır. Hansı ki bu problemin həlli üçün hökumət həmin vergi vasitəsilə yığılmış vəsaitdən dəfələrlə çox vəsait xərcləməli olur".

**Şəymən**

# Gözləyirik, susan deputatlar da İrandan danışacaq

## Azər Həsrət: "İctimaiyyət kimin bu məsələyə necə reaksiya verəcəyi ilə maraqlanır"



***"Parlamentdə illərlə oturub, səsini çıxarmayan deputatlar heç olmasa, bu məsələdə öz fərdi fikirlərini ortaya qoymalı idilər"***

**Milli Məclisin ötən gün keçirilən iclasında deputat Fazil Mustafaya qarşı terror aktı gündəmə gətirilib və bir neçə deputat sui-qəsdi kəskin qınayıb, İranın qərəzli və düşmənçilik siyasətinin əleyhinə fikirlər söyləyiblər.** Çıxış edən deputat Fəzail Ağamalı reaksiyaları yetərli görmədiyini deyib. Bildirib ki, buradan İrana, Fransaya, eləcə də Azərbaycana düşmənlik edən hər kəsə qarşı kəskin etirazımızı bildirməliyik: "Fazil Mustafaya edilən sui-qəsd dövlətimizə qarşı idi. Təəccüb edirəm ki, 120 deputat niyə İrana mövqe bildirmir?". Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli isə deputatın iradını qəbul etməyib. Qeyd edib ki, millət vəkilləri həm plenar iclaslarda, həm də mediada bu mövzu ilə bağlı öz mövqelərini bildirirlər.

**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə bildirib ki, Parlament üzvlərinin hər birinin ayrı-ayrılıqda bu məsələyə münasibəti bizim üçün maraqlı olardı. Ekspertin sözlərinə görə, ictimaiyyət kimin bu məsələyə necə reaksiya verəcəyi ilə maraqlanır:** "Təəssüflə qeyd etməliyik ki, üzdə olan, hər zaman görməyə alışdığımız bir sıra deputatlardan başqa yerdə qalanların münasibətini görmədik. Düzdür, Milli Məclisin sədri, hörmətli Sahibə Qafarova öz münasibətini bildirdi. Spiker xətəxanada millət vəkili Fazil Mustafaya da baş çəkdi. Parlament sədri məsələyə yüksək səviyyədə diqqət göstərdi. Ölkə başçısı deputatın müalicəsi ilə bağlı tapşırıqlarını verdi. Yəni dövlətin diqqət və qayğısını ən yüksək səviyyədə gördük. Lakin Parlamentdə illərlə oturub, səsini çıxarmayan deputatlar da var. Heç olmasa, bu məsələdə öz fərdi fikirlərini ortaya qoymalı idilər. Siyasi maraqlarımız, mövqelərimiz fərqli ola bilər, amma burada söhbət Azərbaycan dövlətinin təhlükəsizliyindən gedir. Ona görə də deputatların vəzifəsidir ki, bu cür məsələdə mütləq münasibət bildirsinlər. Digər yandan düşünmürəm ki, Parlamentin içində bu və ya digər şəkildə İrana bağlı deputat olsun. Bu, ağlabatan deyil. Xalqımız öz seçimində bu məsələlərə çox diqqətlə yanaşmağı bacarır. Ancaq susqunluq cəmiyyətdə müəyyən suallar yarada bilir. Təbii ki, məsələ qapanmayıb. İndiyə kimi danışmayanlar müxtəlif formada öz düşüncələrini ictimailəşdirə bilərlər".

**A.Həsrət vurğulayıb ki, ölkə içində İrana bağlı şəbəkə var və bu şəbəkə hətta dövlət qurumlarına da sızmağı bacarıb:** "Təhsil sistemində, məktəblərdə İran rəhbərliyinə mahnı oxuyan uşaqlar var. Əlbəttə, dövlətin müvafiq qurumları ayıqsayıqdır. Yəqin ki, şübhəli şəxslərlə bağlı tədbirlər görülür. Ümumilikdə düşünürəm ki, İran məsələsində heç kim özünü kənara çəkməməlidir. İran açıq-aşkar Azərbaycanın üzərinə gəlir, bizi sadəcə tənqid etmir, həm də kobud və ədəbsizcəsinə formada təhdid edir. Bu dövlətin vətəndaşı olaraq, deputatımız da, jurnalistimiz də, müəllim də, məmur da bir nəfər kimi ortaya mövqe qoymalıyıq. Kimsə mövqe qoymaqdan çəkinirsə, onlarla bağlı cəmiyyətin şübhəli yanaşması anlaşılan olmalıdır. Haqlı sual ortaya çıxır ki, səni mövqe sərgiləməkdən çəkindirən amil nədir?".

**İsmayıl Qocayev**



# "Yalançı 62 təşkilatdansa, real 6-sı qalsın"

## Əsas məsələ odur ki, sağlam siyasi rəqabət, seçki mühiti qurulsun

**"Partiyaların birləşməsi təsisçilərin, sədrlərin verdiyi qərardır".**

**Bunu "Şərq"ə AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli siyasi partiyaların birləşməsindən danışarkən deyib. O bildirib ki, bizə yalnız hörmət etmək və uğurlar arzulamaq düşür:** "Ayrılmaq və ya birləşmələri artıq daxili məsələləridir. Partiyaların birləşməsi ölkədəki situasiyaya, siyasi reallığa uyğun olaraq, baş verir. Məlum proses bəzi hallarda isə gündəmdə qala bilmək üçün həyata keçirilir. Azərbaycanda partiya çoxdur. Lakin reallıq göstərir ki, ayaqda qalan 5-6 siyasi təşkilat var. Həmin kiçik partiyaların sədrləri siyasi fəaliyyətlərini deputat və s. kimi vəzifələrdə davam etdirə bilsin deyə başqa qruplara birləşməyə məcburdurlar. Əsas sağlam rəqabətdir.

Bu, real siyasi vəziyyətin qurulmasıdır. 2001-ci ildən, 18 yaşımdan siyasi təşkilatın üzvüyəm. Artıq 22 ildir, bu düşərgədəyəm.

Fəaliyyət illərim ərzində bəzən elə partiyalar olur ki, adını ilk dəfədir eşidirəm. Belə olduğu təqdirdə, çoxpartiyalı sistem deyib, onları saxlamağın nə mənası var?! Kimi aldadırıq?! O halda mümkündür ki, həqiqətən də, rəqabət mühiti yaransın. İmitasiya və ya Avropaya göstərmək üçün bizdə 62 partiyanın mövcudluğuna ehtiyac yoxdur. Yalançı 62 təşkilatdansa, real 6-sı qalsın, sağlam siyasi rəqabət, seçki mühiti qurulsun. Birləşmə addımları Azərbaycanda gələcəkdə partiya sisteminin qurulmasına da töhfə vermiş olar".

Qeyd edək ki, Vətəndaş Həmrəyliyi Partiyasına (VHP) birləşəcək daha bir partiyanın adı məlum olub. Bu, Vəhdət Partiyasıdır.

**Sücayət Mehti**

# İranın əsiri olmuş "dindar"ların dəqiq siyahısı müəyyən olunmalıdır

## Agentura şəbəkəsinin bütün üzvləri ifşa olunmalı, onlar ədalət mühakiməsinə çıxarılmalıdır

**"İrandan gələ biləcək növbəti təxribatlar: Azərbaycan təhlükəsizlik qüvvələrinə həyəcan siqnalı verilib. İran tərəfindən ixrac edilən zəhərli silahların gülləri tükənmək bilmir və bu, getdikcə daha təhlükəli hal alır".**



Bu barədə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, İran ideoloji habında qərar tutan və molla rejiminə nökərçilik etməyi müqəddəs missiya hesab edən qüvvələri yeni təlimatlarla ayağa qaldırmaq istəyəcək: "İran Yaxın Şərqdəki proksi qüvvələri vasitəsilə, bu azmış kimi, hətta rəqabətdə olduğu PKK və İŞİD terrorçuları ilə sövdələşmələrə gedərək Cənubi Qafqazda suyu bulandırmağa çalışacaq. İran Fransa ilə kəşfiyyat sahəsində əməkdaşlıq platforması quraraq onun diqqətinin Azərbaycana qarşı davamlı olmasını təmin etməkdə maraqlıdır. İranın öz vətəndaşlarına Azərbaycanı tərk etmək barədə etdiyi çağırış bu üç istiqamət üzrə onun qurduğu kəşfiyyat oyununun tərkib hissəsi kimi qavranıla bilər. Hərçənd ki, İran bunu rəsmi yox, qeyri-rəsmi kanallar vasitəsilə elan etmişdi ki, buradan da bir neçə ehtimal çıxara bilərik. Birincisi, İran Azərbaycanla güc qarşıdurmasının hərbi aspektlərini planlaşdırır, vətəndaşlarını Azərbaycanı tərk etməyə çağırmaqla əsl məqsədini gizlətməyə çalışır. İkincisi, İran öz əlaltıları vasitəsilə yeni təxribat aktı hazırlayır. Üçüncüsü, İran Azərbaycanın Ermənistanla sərhəddə toqquşmasını ehtimal edərək casus şəbəkəsini Azərbaycanı tərk etməyə səsləyir. Məqsəd mümkün toqquşma zamanı İranın Ermənistana göstərə biləcəyi hərtərəfli dəstəyə görə casus şəbəkəsinin ziyan çəkməməsidir. Yəni Azərbaycandakı agentura şəbəkəsinin üzvləri molla rejiminin Ermənistan üçün yazdığı duaları oxusalar, dövlət onları həbs edəcək".

A.Kərimova görə, bütün proseslər bir-birilə üzvi surətdə bağlıdır: "Azərbaycanın təhlükəsizlik orqanları bu bağlılıqlarda kimin hansı ipdə dayandığını təhqiq edir. Deputat Fazil Mustafaya qarşı terroru planlaşdıranların, onun maliyyə tutumunu hazırlayanların, sifarişini verənlərin, icrasını həyata keçirənlərin həbs olunması məlumatları Bakının ciddi əkshəmləyə başladığından xəbər verir. Verilən rəsmi bəyanatlar (XİN tərəfindən) ardınca kütləvi saxlanılmalar, həbs olunan şəxslərin portretləri üzərindən aparılan təhlillər belə deməyə əsas verir ki, terror aktının arxasında İran xüsusi xidmət orqanları, ələlxüsus da SEPAH dayanıb. Azərbaycanın təhlükəsizlik qüvvələri həyəcan siqnalı ilə meydana atılıb və dövlət tərəfindən onlar qarşısında qoyulan vəzifələri iki meyarla təsnif edə bilərik. Bunlar İranın xüsusi xidmət orqanlarının direktivlərini yerinə yetirənlərin Ermənistanla olan bağlılıqlarını araşdırmaq və İranın məqsədlərinin əsiri olmuş və hər cür addıma gedə biləcək "dindar"ların ən dəqiq siyahısını müəyyən etməkdir. Həmçinin dəqiqləşdirmələrdən sonra İranın agentura şəbəkəsinin bütün üzvlərini ifşa etmək, onları ədalət mühakiməsinə təqdim etməkdir".

**İsmayıl**



# Xalqın heç bir tələbi nəzərə alınmır

## Hicab məcburiyyəti Güneydə etirazları gücləndirib

**Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası İranda edamların artmasını, insan haqlarının geniş və kobud şəkildə pozulmasını və zorakılıqda iştirak edənlərə diplomatik toxunulmazlığı pisləyən qətnamə qəbul edib.**

Qərar Cenevrədə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının 47 üzv dövlətindən 23-nün səs verməsi ilə təsdiq edilib.

Kuba, Çin, Pakistan və Vyetnam da daxil olmaqla 16 ölkə səsvermədə bitərəf qalıb, İnsan Hüquqları Şurasının 8 üzvü isə qətnamənin əleyhinə səs verib.

Qətnamədə İranda insan haqlarının kobud, dəfələrlə və davamlı şəkildə pozulmasından dərin təəssüf hissi ifadə edilir, edamların sayının artması, o cümlədən xalq etirazlarında həbs olunanların edam edilməsi ilə bağlı narahatlıq ifadə edilir.

Qətnamədə İranda "cins, etnik mənşə, din və ya siyasi fikirlərə əsaslanan sistematik ayrı-seçkilik və zorakılıq" pislənilib.

BMT-nin İrandakı insan hüquqları üzrə xüsusi məruzəçisi Cavid Rəhmanın da mandatı daha bir il uzadılıb. İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani qətnaməni rədd edib, Cavid Rəhmanın səlahiyyət müddətinin uzadılmasını pisləyib.

Xatırladaq ki, İranda etiraz aksiyaları ötən il sentyabrın 17-də 22 yaşlı Məhsa Əmininin hicab qaydalarına riayət etmədiyi üçün işgəncə nəticəsində öldürülməsindən sonra başlayıb. Etirazlarda iştirakına görə 4 nəfər edam edilib. İran təhlükəsizlik qüvvələri 500-dən çox etirazçını öldürüb.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən Orta Doğu Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Sədrəddin Soltan bildirib ki, İranda etiraz aksiyalarının nisbətən səngiməsi tətillər ilə bağlı idi:** "Etirazlar öncə İran hökumətinin hicabla bağlı verdikləri qərarlar səbəbiylə başlamışdı. Daha sonralar bu aksiyaları başqa səbəblərlə davam edirdi. Məktəbli qızların yeməkdən zəhərlənməsi məsələsi isə İranda bu vəziyyəti daha da çıxılmaz hala gətirdi, etirazlar geniş füsət aldı. Hazırda etiraz aksiyaları davam edir".

S.Soltan həmçinin vurğulayıb ki, etiraz aksiyasının belə kütləviləşməsi və davam etməsi İran hakimiyyətinin cəmiyyətin bu istiqamətdə çıxışlarına laqeyd münasibətidir. Hakimiyyət hicabla bağlı qaydaları daha da sərtləşdirməklə etiraz aksiyalarının güclənməsinə şərait yaratmış oldu: "Xomeyni dünənki çıxışında bildirib ki, hicab dinin qaydasıdır və bu istiqamətdə heç bir güzəşt olunmayacaq. Bununla yanaşı, İran Parlamentinin sədri Bəkir Qalibaf bildirib ki, İran Parlament hicab haqqında qanunun icrasını dayandırmayacaq. Odur ki, xalqın tələbləri ödənmədiyindən cəmiyyətin də etirazları güclənib".

**Siyasi şərhçi qeyd edib ki, Azərbaycan bayraqlarının da bu etirazlarda yüksəldilməsi müşahidə olunur:** "Bu hərəkatlar zamanı Azərbaycan türkləri "azadlıq, ədalət, milli hökumət" şüarları irəli sürürlər. Azərbaycan bayrağını da göstərməklə İran hakimiyyətinə bildirirlər ki, dünya Azərbaycan türkləri Azərbaycan Respublikasının maraqlarını və onun dövlətçiliyini müdafiə edir".

***Molla rejimi Xudafərinə gedən yolları da qapadır ki, Azərbaycana dəstək məkanına çevrilməsin***

"İran hakimiyyəti Xudafərin ərazisində dayanacaq yerini ləğv edib. Əhalinin son zamanlar bura olan axını İran hakimiyyətini narahat edir. Əsas məsələ perspektivdə soydaşlarımızın Xudafərin körpüsü ətrafında aksiyalar keçirməsinin qarşısını almaqdır. Əvvəllər Azərbaycan türkləri öz varlıqlarını bizlərə göstərmək üçün Qaradağ mahalındakı Babək qalasını və onun ətraf ərazisini istifadə edirdilər. Burada tədbirlər və aksiyalar keçirirdilər. İndi isə Azərbaycan Prezidenti cənab İlham Əliyev Xudafərini qardaşlıq, dostluq körpüsü kimi elan etdiyi üçün Cənubi Azərbaycanda yaşayan soydaşlarımız bura axın etməklə dostluğu, qardaşlığı həm İran hökumətinin, həm də dünya ictimaiyyətinin nəzərinə çatdırmağı planlaşdırır. İran hakimiyyəti də bundan narahat olduğu üçün müxtəlif məhdudlaşdırıcı tədbirlər görməkdə davam edir", - deyə S.Soltan sözlərinə əlavə edib.

**Nihad Kərimli**

# Tehran koalisiyada maraqlıdır

## Moskva Qərbə qarşı mübarizədə İran və Çinlə üçlü koalisiya formalaşdırmaq istəyir

**Rusiya və İran yaxın müddətdə strateji tərəfdaşlıq haqqında saziş imzalayacaqlar. Bu barədə İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian bir neçə gün əvvəl Moskvaya səfəri zamanı rusiyalı həmkarı Sergey Lavrovla müzakirə aparıb. Sazişin yaxın aylarda imzalanacağı planlaşdırılır. Rusiya ilə İran arasında strateji tərəfdaşlıq sazişi iki ölkə arasında 2001-ci ildə imzalanan əməkdaşlıq sazişini əvəz etməlidir. Bu müddətdə İran Rusiyanın tərəfdaşından strateji tərəfdaşına çevrilib. Ona görə də Moskva və Tehran yeni sazişə ehtiyac duyurlar.**



*"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Moskva Qərbə qarşı mübarizədə İran və Çinlə üçlü koalisiya formalaşdırmaq istəyir. Analitik vurğulayıb ki, Tehran da bu koalisiyada maraqlıdır:* "İran 2021-ci ildə Çinlə, 2022-ci ildə Venesuela ilə strateji tərəfdaşlıq sazişi imzalayıb. Venesuela ilə İranı sadəcə anti-Amerika siyasəti birləşdirir. Tehranla Pekini isə anti-Amerika siyasəti ilə yanaşı, dərin iqtisadi və ticarət əlaqələri birləşdirir. Çin yaxın illərdə İrana böyük yatırımlar həyata keçirməlidir. Bundan başqa Çin İrandan ucuz neft almaqda maraqlıdır. Pekinin İranla Səudiyyə Ərəbistanını barışdırmaq çalışmaları da Çinin Avrasiya bölgəsində artan rolundan xəbər verir. Rusiya ilə İran arasında 2022-ci ildə ticarət mübadiləsi 15 faiz artaraq 5 milyard dollara çatıb. Moskva növbəti mərhələdə İranla Şimal-Cənub nəqliyyat dəhlizini reellaşdırmaq istəyir. Rusiya bu dəhliz vasitəsilə Asiyanın uzaq ölkələri ilə ticarət mübadiləsini artırmağı planlaşdırır. Bu məqsədlə İran ərazisində 2025-ci ilə qədər Rəşt-Astara dəmiryolu tikilməlidir. Ancaq Moskvanın bu planları hazırda təhlükə altındadır".

**Ekspert xatırladıb ki, İranın Azərbaycana qarşı artan təxribatları iki ölkə arasındakı münasibətləri gərginləşdirib:** "Azərbaycanın İrandakı səfirliyi fəaliyyətini dayandırıb. Tehran Azərbaycanın İsraillə artan əməkdaşlığının əleyhinə açıqlamalar verməkdə davam edir. Bakıda azərbaycanlı deputata qarşı terror aksiyasında İranın adı hallandırılır. Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında terror aksiyasının arxasında İranın olduğu bildirilib. Belə vəziyyətdə Azərbaycandan da keçəcək Şimal-Cənub nəqliyyat dəhlizinin perspektivi suallar doğurur. Bu layihənin işə düşməsi üçün İran Azərbaycana qarşı təxribatları dayandırmalı və münasibətlərin normallaşdırılmasına çalışmalıdır. Ancaq Tehran bunları etmir".

**İsmayıl Qocayev**





# Azadlıq aşiqi

## Son nəfəsinə qədər mübarizədən dönmədi

**Güney Azərbaycandakı Milli Azadlıq Hərəkatının fəal iştirakçılarından biri də şəhid Ənuşirəvan İbrahimidir. O həmçinin Azərbaycan Milli Hökumətinin (1945-1946, Təbriz) Baş Prokuroru olmuş, Milli Hökumət süqut etdikdən sonra isə 1947-ci ilin may ayının 22-də Təbriz şəhərinin Gülüstan bağında dar ağacından asılan şəhid Firudin İbrahiminin qardaşıdır.**

Qeyd edək ki, Ənuşirəvan Qəni oğlu İbrahimi 12 may 1926 - cı ildə Astara şəhərində anadan olub. Atası inqilabi fəaliyyətinə görə Nəhavəndə sürgün edildiyinə görə Ənuşirəvan ibtidai təhsilini Astarada, orta təhsilini isə Nəhavənddə davam etdirib. Cənubi Azərbaycanda 21 Azər hərəkatı qalib gəldikdən sonra Azərbaycan Milli Hökuməti qurulur. Ənuşirəvan İbrahimi də Təbrizə gələrək burada polis məktəbində təhsil almağa başlayır. Düşmənə qarşı mübarizə aparmaq üçün qardaşı Firudin İbrahimi ilə birlikdə gənc könüllülərdən ibarət" Babək" qrupunu yaradır.

1946-cı ilin dekabr ayında Azərbaycan Milli Hökuməti süqut etdikdən sonra şah rejimi tərəfindən hərəkatçılar, eləcə də onların tərəfdları olan minlərlə insan həbs edilərək güllələnib və yaxud sürgün edilib.

Təqiblərdən qurtarmaq üçün minlərlə firqəçi Sovet Azərbaycanına pənah gətirir. Ənuşirəvan İbrahimi də Bakıya mühacirət edib. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil alıb və elmi-tədqiqat fəaliyyətini davam etdirib. Moskvada İran Tudə Partiyasının 1944-1946-cı illərdə irticaya qarşı mübarizəsi (İran Tudə Partiyasının parlamentdə və hökumətin tərkibində fəaliyyəti timsalında)" dissertasiya işini müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alıb. Bir neçə xarici dil bilib. Bakıda ingilis dili üzrə də ali təhsil alan Ə.İbrahimi sovet Azərbaycanında olduğu müddətdə siyasi fəaliyyətini davam etdirib. O, Azərbaycan Demokrat Firqəsinin fəal və nüfuzlu üzvlərindən birinə çevrilib. Fəaliyyəti cavanlar təşkilatından başlayaraq firqənin Mərkəzi Komitəsinin üzvülüyünə qədər yüksəlib. O, dəfələrlə beynəlxalq konfrans və seminarlarda iştirak edib.

Qeyd edək ki, İranda 28 avqust 1953-cü ildə dövlət çevrilişindən sonra irtica rejiminin təhlükəsizlik qüvvələri tərəfindən şiddətli basqılara məruz qalan İran Tudə Partiyasının rəhbərləri və üzvləri də xaricə mühacirət etmək məcburiyyətində qalıblar. Onlar sosialist ölkələrində - Moskva, Praqa, Sofiya, Berlin

(Şərqi Berlin) kimi şəhərlərdə məskunlaşıblar.

1960-cı ilin avqust ayında ADF və İran Tudə Partiyasının MK üzvlərinin iştirakı ilə" Vəhdət konfransı" keçirilir və ADF öz adını və MK-sını saxlamaq şərtilə İran Tudə Partiyasının Azərbaycan Əyalət komitəsi kimi təsdiq olunub. Bu zaman Şərqi Almaniyada siyasi fəaliyyətlə məşğul olan görkəmli firqəçi Əmirəli Lahrudi Sovet Azərbaycanına qayıdıb və onun yerinə Berlinə Ənuşirəvan İbrahimi göndərilib. O,1978-1979-cu il inqilabı baş verən kimi İran Tudə Partiyasının İcraiyyə Heyətinin üzvü olaraq bu partiyanın İranla qonşu olan Türkiyə, Hindistan və bu kimi bir neçə ölkədə olan təşkilatlarının işlərinə rəhbərlik edib. Şahlıq rejimi devrildikdən sonra Ənuşirəvan İbrahimi də İran Tudə (Xalq) Partiyası rəhbərləri sırasında Şərqi Almaniyadan İrana gəlib. 32 il mühacirət həyatı yaşadıqdan sonra 1978-ci ildə Vətənə qayıdan İbrahimi Təbrizdə Azərbaycan Demokrat Firqəsinə, onun yerli təşkilatlarına rəhbərliyi öhdəsinə götürüb.

İran Tudə Partiyasının şəhər, vilayət və əyalət təşkilatları bütün ölkə üzrə fəaliyyətini bərpa edərək işə başlayıb.



### *Milli Azadlıq Hərəkatının fəal iştirakçısı Ənuşirəvan İbrahimi şəhid qardaşının ideyalarına sadiq qalıb*

Tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadənin araşdırmasına görə, Təbrizə gələn Ənuşirəvan burada öncə 21 Azər yadigarı, Azərbaycan millətinin qəhrəman oğlu, Azərbaycan Milli Hökumətinin Baş prokuroru və xalqının azadlığı yolunda şəhid olmuş böyük qardaşı Firudin İbrahiminin məzarını ziyarət etmək üçün "Ağalı" (bugünkü "İmamiyyə") qəbiristanlığına baş çəkir. Qardaşının məzarı önündə dayanaraq astaca ona bunları söyləyir: "Əziz qardaşım! Böyük ustadım! Mən çox istədim ki, son ana qədər sənin yanında olum. Amma sənin tapşırığına əməl etmək məni səndən ayırdı. Mən bütün bu illər boyu səninlə birlikdə yaşamışam və mənə öyrətdiyin hər şeyə əməl etmişəm. Sənə qovuşmaq üçün də yolunu davam etdirirəm".

Azərbaycan Demokrat Firqəsi (Tudənin əyalət komitəsi) 32 ildən sonra Ənuşirəvan İbrahiminin rəhbərliyi altında yenidən özünün açıq və qanuni fəaliyyətinə başladı. ADF-nin orqanı "Azərbaycan" qəzeti yenidən ana dilində öz nəşrini bərpa etdi. Bu dəfə Ənuşirəvan özü şəhid qardaşı Firudinin yolunu davam etdirərək qəzetdə məqalələr dərc və hər sayda gedən məqalələri redaktə edib. "Azərbaycan" qəzeti ətrafında Ənuşirəvan İbrahimi ilə yanaşı ADF-nin mühacirətdə olan Mərkəzi Komitəsinin üzvlərindən Seyidağa Onullahi, Məhəmməd Hüseyn Xoşginabi, Tağı Musəvi, Mirvahab Əfxəmi, Məhəmməd Əli Fərid, Məhəmmədəli Müciri, Fəqih, İrandoxt İbrahimi, Firidun Kazimi və başqaları birləşiblər, Azərbaycan xalqının milli-demokratik və mədəni hüquqlarının əldə edilməsi uğrunda birlikdə, çiyin-çiyinə mübarizəni davam etdiriblər.

Ənuşirəvan İbrahimi və onun rəhbərlik etdiyi Azərbaycan Demokrat Firqəsi və üzvlərinin fəaliyyəti dörd ildən artıq çəkməyib.

1983-cü ilin aprelində İran Xalq Partiyasının fəaliyyəti qeyri-qanuni elan edilir.

Buna rəğmən Azərbaycan Respublikasının dövlət sərhədinə daha yaxın Təbriz şəhərində yaşayan və mühacirət imkanları daha çox olan Ənuşirəvan İbrahimi İranı tərk etmir. O, siyasi fəaliyyətin artıq mümkün olmadığı belə bir ağır şəraitdə də öz mövqeyinə sadiq qalaraq belə deyib: "Mən öz həmməsləklərimdən 30 il artıq ömür sürmüşəm. Mən demokrat firqəsinin məğlub olduğu və Milli Hökumətin yıxıldığı günlərdə mühacirətə getmək istəmədim, qardaşım kimi xalqımın yanında olmağı üstün tutdum. Amma şərait məni mühacirət etməyə məcbur etdi. Mən qardaşımın vəsiyyətinə vəfadar qalacağam, bu dəfə şüarım "Öldü var, döndü yoxdur!". Belə bir şəraitdə Ənuşirəvan İbrahimi bütün imkan və vasitələrdən istifadə etməklə Azərbaycanda, xüsusilə Təbrizdə firqə kadrlarının təhlükəsizliyini təmin etmək üçün ehtiyat tədbirlərini həyata keçirib, onların məxfi iş fəaliyyətinə keçmələrini təşkil edib. Ənuşirəvan özü isə Tehrana getdiyindən Mərkəzi Komitənin digər üzvləri ilə birlikdə həbs olunub.

Zindanlardakı məhbuslara verilən işkəncələr elə bir həddə çatdırılırdı ki, onlar ya tələf olmalı, ya da xarici bir dövlətin casusu olduqlarını, İran İslam Respublikasına qarşı çevriliş hazırladıqlarını etiraf etməli idilər. Ənuşirəvan da bu cür işgəncələrə məruz qalırdı. O, bacısı İqlimə ilə zindandakı son görüşündə ona vəsiyyət olaraq bunları söyləyib: "Bunlar məni edama məhkum etmişlər. Yəqin bilirəm ki, hamımızı öldürəcəklər. Əgər bacarsan, cənazəmi onlardan alıb Astaraya apar və anamın ayaqları altında dəfn elə. Əgər verməsələr və digər mübarizə yoldaşlarımla birgə öldürsələr, mənim dəfn olunduğum yeri yadında saxla. Əgər övladlarım bu istibdad rejimi devrildikdən sonra gəlsələr və məni tapmaq istəsələr, qoy, çətinlik çəkməsinlər. Əminəm ki, bu rejim devriləcəkdir. Mənim ölüm xəbərimi heç kimdən, hətta övladlarımdan belə gizləmə. Dözümlü, səbirli ol və özünü qoru. Əgər bir gün sənin üçün mənim nəvələrimi görmək üçün bir şərait yaranarsa, mənim tərəfimdən onların üzündən öpərsən. Hamıya mənim salamımı yetir. Mənə görə narahat olma. Mən gərək qardaşım Firudin və Azərbaycan Demokrat Firqəsinin şəhidləri ilə birlikdə öləydim. Həmin gündən indiyə kimi artıq ömür sürmüşəm".

Ənuşirəvan Qəni oğlu İbrahimi son nəfəsinə kimi öz etiqadını və inamını ani də olsa, dəyişməyib, rəşadətli və şəhid qardaşı Firudinin ideyalarına sadiq qalıb, onlardan ilham alıb, uzun illər siyasi mübarizə yollarında bişib, möhkəmlənib.

Ənuşirəvan İbrahimi 13 sentyabr 1987-ci il tarixində Tehrandakı "Evin" zindanında edam edilib. Görkəmli firqəçi Tehranın şərq hissəsində bu gün "Xavəran" adlanan keçmiş Misgərabad qəbiristanlığında azadlıq uğrunda canlarını qurban vermiş minlərlə məsləkdaşları arasında dəfn edilib.

Azadlıq və ideyaları uğrundakı mübarizəsi, Vətənə sədaqəti və sevgisi ilə gənclərə üçün nümunə olan Ə.İbrahimi son nəfəsinə qədər Azərbaycanın azadlığı uğrunda ömrünü fəda edib.

**Şəymən**

# Azərbaycan-Tacikistan münasibətlərində yeni dövr başlayır

## Xalqlarımız arasında qarşılıqlı münasibətlərin qədim tarixi və xoş ənənələri var



**Aprelin 5-də Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Respublikasına səfər edib. Səfər çərçivəsində Prezident İlham Əliyevin Tacikistan dövlət başçısı Emoməli Rəhmon ilə təkbətək görüşü olub. Daha sonra liderlərin geniş tərkibdə görüşü keçirilib. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan-Tacikistan münasibətlərinin çox yaxşı gələcəyi var: "Siz qeyd etdiyiniz kimi, Azərbaycanla Tacikistan arasında münasibətlərin yaxşı tarixi və əminəm ki, çox yaxşı gələcəyi var.**

Biz həm beynəlxalq məkanlarda, beynəlxalq strukturlar çərçivəsində və əlbəttə, ikitərəfli formatda çox istiqamətlər üzrə əməkdaşlıq edirik. Əməkdaşlığın, o cümlədən ticari-iqtisadi, sənaye kooperasiyası, nəqliyyat sahələrində dərinləşməsi üçün çox yaxşı perspektivlər var". Tacikistan Prezidenti Emoməli Rəhmon da söyləyib ki, Tacikistan-Azərbaycan münasibətləri inkişaf edir: "Hörmətli İlham Heydər oğlu, Tacikistana xoş gəlmisiniz. Xalqlarımız arasında qarşılıqlı münasibətlərin qədim tarixi və xoş ənənələri var. Sevindirici haldır ki, bu gün bizim dövlətlərarası münasibətlər bir çox istiqamətlər üzrə inkişaf edir. Biz bu münasibətlərin bütün formatlarda daha da möhkəmlənməsinə böyük əhəmiyyət veririk. Bu gün sizinlə ölkələrimizin qarşılıqlı əlaqələrinin vəziyyətini və perspektivlərini, habelə beynəlxalq və regional məsələləri müzakirə etməyə hazıram. Bir daha xoş gəlmisiniz. Ölkəmizdə vaxtınızın xoş keçməsini arzu edirəm". Qeyd edək ki, liderlərin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan və Tacikistan arasında sənədlərin imzalanması mərasimi olub.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan-Tacikistan münasibətləri sovet dövründən öz tempini qoruyub saxlamaqdadır. Analitikin sözlərinə görə, Azərbaycan həmçinin Tacikstanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir:** "İlk dəfə dövlət başçıları səviyyəsində görüş 1997-ci ildə İslam Konfransı Təşkilatının iclasında reallaşmışdı. Səfirliklər səviyyəsində diplomatik münasibətlərimiz 2007-2008-ci illərdə qurulsa da, biz Tacikistanın müstəqilliyini 1992-ci ilin may ayında tanımışıq. Bu illər ərzində iki ölkə arasında geniş spektrdə əlaqələr qurulub. Bu əlaqələr əsasən siyasi, sənaye, nəqliyyat, elmi-texniki, humanitar və hüquq-mühafizə sahələrini əhatə edir. Perspektivdə isə Azərbaycanın Tacikistana daha böyük həcmdə investisiya yatırması gözlənilir. Tacikistanla əlaqələrimizin inkişafının gələcəkdə Türkistanda və İranda mövqelərimizin güclənməsinə xidmət edəcəyi şübhəsizdir. Eyni zamanda Tacikistan üzərindən Əfqanıstanla əlaqələrimizin inkişafı perspektivi böyükdür. Biz Tacikstanla MDB və İslam Konfransı Təşkilatında ciddi tərəfdaşıq. İranın farsdilli əhalisi ilə etnik bağlılığı olan Tacikistanla yaxınlığımız bizim üçün xüsusilə əhəmiyyətlidir. Güman edirəm ki, gələcəkdə İranla münasibətlərimizin normallaşmasında Tacikistan öz töhfəsini verə bilər".

**İsmayıl Qocayev**

# Stoltenberq Çinə xəbərdarlıq edib



**Çinin Rusiyaya yardımı böyük səhv olacaq və bunun kəskin nəticələri olacaq.**

Bu barədə NATO Baş katibi Yens Stoltenberq alyansın XİN başçılarının iclasından sonra mətbuata açıqlamasında deyib.

O bildirib ki, NATO müttəfiqləri Çinin etdiklərini yaxından monitorinq edir: "Çindən Rusiyaya veriləcək dəstək böyük səhv olacaq və bunun dərin təsirləri, kəskin nəticələri olacaq".

Stoltenberq eyni zamanda, əlavə edib ki, indiyə qədər Çinin Rusiyaya hərbi yardımı qeydə alınmayıb: "Ancaq Çin indiyə qədər Rusiyanın Ukraynada törətdiklərini, bu qanlı müharibəni pisləməyib. Biz Çin və Rusiyanın daha da yaxınlaşdığını görürük, onlar müharibədən qabaq tərəfdaşlıq sazişi imzaladı. Çin Rusiyanın iqtisadiyyatına yardım edir".

# Gənclərimiz zərərli və zəhərli ideologiyalarla üz-üzədir

## Bu özünü təkcə dini fəaliyyət sahəsində deyil, digər sahələrdə də açıq göstərir

**Son proseslər bir daha göstərdi ki, Azərbaycan gənci davamlı olaraq müxtəlif təhdidlərlə, zərərli və zəhərli ideologiyalarla üz-üzədir. Bu özünü təkcə dini fəaliyyət sahəsində deyil, digər sahələrdə də açıq göstərir. Həm Şərqin, həm də Qərbin Azərbaycan gəncliyi ilə bağlı çox ciddi və məkrli planları var.**



*"Davamlı geniş maarifləndirmə və təbliğat işləri aparılmalıdır. Əks halda bu günün gəncliyi gələcəkdə bizim olmayacaq"*

Bütün bunlar ölkəmizin gənclər siyasətinə yenidən baxılmasını, bu cür təhdidlərə qarşı yeni strategiyaların və konsepsiyaların hazırlanmasını labüd edir. Belə davam etsə, gələcəkdə bu təhdid və təhlükələrin miqyası daha da artacaq. Azərbaycan gəncliyi ciddi qopuqluq yaşayaraq, milli kimliyindən və milli-mənəvi dəyərlərindən daha da uzaqlaşacaq.

**Millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov bildirib ki, hazırkı vəziyyətdə həm ailələrimizin, həm də dövlət qurumlarının üzərinə ciddi vəzifələr düşür. Deputatın sözlərinə görə, bu, bir reallıqdır ki, müasir dövrdə ailə institutu üzərinə düşən əksər vəzifələrin öhdəsindən müxtəlif səbəblərdən layiqincə gələ bilmir:** "Bu gün övladlarımızı daha çox yaşadığımız mühit, televiziya və sosial şəbəkələr tərbiyə edir. Belə olduğu halda dövlət qurumlarının üzərinə daha çox vəzifə düşür. Ancaq bütün hallarda ailələr də övladlarının sağlam tərbiyəsi üçün ciddi-cəhdlə çalışmalıdırlar. Bu gün tərbiyəsinə önəm verə bilmədiyimiz və vaxt ayıra bilmədiyimiz gənclik sabah bizim olmayacaq. Bu məsələdə Elm və Təhsil, Gənclər və İdman və Mədəniyyət nazirliklərinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də üzərinə çox mühüm vəzifələr düşür. Çox geniş miqyasda maarifləndirmə və təbliğat işləri aparılmalıdır. Həm gənclər, həm də valideynlər arasında. Xüsusilə də bölgələrdə bu istiqamətdə ciddi işlərin görülməsinə ehtiyac var. Məktəblərimizdə, məscidlərimizdə, kinoteatrlarımızda, televiziyalarımızda, mediamızda və idman klublarımızda milli-mənəvi dəyərlərimizin qorunması və təbliği işinə xüsusi həssaslıqla yanaşılmalıdır. Davamlı geniş maarifləndirmə və təbliğat işləri aparılmalıdır. Əks halda bu günün gəncliyi gələcəkdə bizim olmayacaq".

**İsmayıl**

# Cinayətkarın və terrorçunun məzhəbi olmur

## “Şiəliyə və islama qarşı antitəbliğatı İran özü aparır”

**"Xarici maraqlı qüvvələrin ölkəyə gələrək insanları öz agentura şəbəkələrinə cəlb etmələri buraxılmış bəzi boşluqların nəticəsidir. Bunun qarşısını almaq üçün isə maarifləndirmə prosesi düzgün aparılmalıdır".**

*Bunu "Şərq"əa açıqlamasında ilahiyyatçı Tural İrfan İran casuslarının həbs edilməsinin "dindarlar" və "şiə" məzhəbinə qarşı kampaniya kimi qələmə verilməsindən danışarkən deyib.*



O qeyd edib ki, məzhəb ayrıseçkiliyi ilə bağlı yalanlar həmin xarici qüvvələrin ortaya atdığı provokasiyadır:

"Cinayətkarın və terrorçunun məzhəbi olmur. Hər bir cinayətkar məzhəbindən və dinindən asılı olmayaraq cəzalandırılmalıdır. Sadəcə ola bilər ki, həmin şəxslər şiə məzhəbindəndirlər. Həmin şəxslər İran tərəfindən ələ alınmış qüvvələrdir və terrora cəhd ediblər. Ümumiyyətlə, Azərbaycan xalqının yarıdan çoxu şiə əqidəlidir və bu məzhəbə qarşı heç bir basqı olunmur. Həbs edilənlər isə şiə əqidəsi adı altında xarici qüvvələrə alət olan insanlardır. Şiəliyə qarşı basqı olması iddiası İranın provokasiyasıdır. Əslində şiəliyə və islama qarşı anti-təbliğatı həmin terrorçuları göndərməklə İran özü aparır. Onlar Hüseyn adını terrora qoşaraq Hüseynin bayrağını murdarlayırlar".

Məsələyə münasibət bildirən Azərbaycan Demokrat Partiyasının sədr müavini Həsrət Rüstəmov isə söyləyib ki, İran dövlətinə çalışan şəxslər boşluqlardan istifadə edərək, anti-müsəlman, anti-şiə kampaniyası kimi qələmə verməyə çalışırlar: "Bu provokasiyalara qarşı hüquq-mühafizə orqanları və media mənsubları ciddi mübarizə aparmalıdır".

**Nihat**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**



# Mina terroru

## Ermənistan Azərbaycana mümkün qədər çox ziyan vurmaq niyyətindədir

**Ermənistan tərəfi 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın 4-cü bəndinə zidd olaraq, Azərbaycan ərazilərində qanunsuz hərbi fəaliyyətini davam etdirir. Erməni silahlıları nəinki Azərbaycan ərazisindən tam şəkildə çıxmayıb, əksinə, təxribatçı fəaliyyətlərini hələ də davam etdirməkdədirlər. Azərbaycan ərazilərində külli miqdarda aşkarlanan piyada əleyhinə minalar bu təxribatçı fəaliyyətin əyani sübutudur. Bu kimi hallar yalnız keçmiş təmas xətti boyunca deyil, ölkənin işğaldan azad olunan digər ərazilərində də baş verir.**

Bəlli məsələdir ki, Ermənistan Azərbaycan tərəfinə mümkün qədər çox ziyan vurmaq niyyətindədir və bu çirkin amalını müxtəlif yollarla həyata keçirməyə çalışır. Minaların kütləvi şəkildə basdırılması həmin əməllərdən biridir. Məhz bunun nəticəsidir ki, minaya düşmə halları günbəgün artır. Belə ki, işğaldan azad olunmuş ərazilərimizdə 2020-ci il müharibəsinin sonundan bəri 288 azərbaycanlı minaya düşüb, onlardan 50-si həyatını itirib. Təəssüf hissi ilə qeyd edirik ki, işğal dövründə ərazilərin Ermənistanın hərbi birləşmələri tərəfindən kütləvi minalanması Azərbaycan hökumətinin son iki ildə başlatdığı bərpa və yenidənqurma planlarının həyata keçirilməsinə ciddi şəkildə mane olur. Ən əsası isə bu, yüz minlərlə məcburi köçkünün öz evlərinə təhlükəsiz və layiqli şəkildə qayıtmaq kimi ayrılmaz hüququnun həyata keçirilməsinə mənfi təsir göstərir. Prezident İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, mina təhlükəsi azad edilmiş ərazilərdə bərpa işlərinin aparılmasına və məcburi köçkünlərin evlərinə qayıtmasına əsas maneədir. Hazırda Şuşa-Xankəndi yolunda azərbaycanlı ictimai fəallar və ekoloji qeyri-hökumət təşkilatlarının üzvləri tərəfindən keçirilən etiraz aksiyası davam etdirilir. Ekoloji terrora son qoymaq şüarları altında keçirilən aksiyanın iştirakçıları Ermənistan ərazisindən Azərbaycana silah-sursatın, hərbçilərin daşınması, milli sərvətlərimizin ölkədən çıxarılması və digər qanunsuz əməllərin həyata keçirilməsi üçün istifadə olunan Laçın yoluna nəzarət edilməsini və bu cinayətlərə, qanunsuzluğa son qoyulmasını tələb edirlər. Bu aksiya həm də Ermənistanın mina terroruna qarşıdır. Xatırladaq ki, aprelin 2-də daha bir hərbi qulluqçumuz mina partlaması nəticəsində həlak olub.

Ötən gün dövlət başçısı İlham Əliyev də məsələyə növbəti dəfə toxunub. Prezident qeyd edib ki, Vətən müharibəsinin başa çatdığı 2020-ci il noyabrın 10-dan etibarən Ermənistanın mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşı həlak olub və ya ağır yaralanıb. 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü ilə bağlı paylaşım edən ölkə başçısı deyib ki, Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində 30 il ərzində 1 milyondan çox mina basdırıb: "Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. 1990-cı illərin əvvəlindən 3300-dən çox vətəndaşımız mina qurbanı olub. Hazırda azad edilmiş ərazilərimizdə genişmiqyaslı quruculuq işləri aparılır. Müasir texnologiyalara əsaslanan humanitar minatəmizləmə və mina sahəsində maarifləndirmə bu işlərin tərkib hissəsidir. Dünyada mina terroruna son qoymaq üçün beynəlxalq səylər artırılmalıdır". Dövlət başçısı vurğulayıb ki, Ermənistanın mina terroru yüz minlərlə məcburi köçkünün öz evlərinə təhlükəsiz və layiqli şəkildə qayıtmaq kimi ayrılmaz hüququnun həyata keçirilməsinə mənfi təsir göstərir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar hələ də mina xəritələrinin verilməsi ilə bağlı Ermənistana güclü təzyiq göstərmir.

**Hüquq müdafiəçisi, Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə "Şərq"ə açıqlamasında bildirib ki, ermənilər həm işğal, həm də postmüharibə dövründə bölgəyə çoxsaylı mina döşəyib, xeyli sayda partlamamış mərmi basdırıblar. Ekspert diqqətə çatdırıb ki, Ermənistan postmüharibə dövründə həmin ərazilərin dəqiq xəritələrini Azərbaycana verməyib:** "Bu məsələyə qətiyyən biganə qalmaq olmaz. Dövlət başçısı mütəmadi bu problemi gündəmə gətirir, minalı ərazilərin xəritəsinin verilməsi məsələsini qaldırır. Ermənistan bəzi hallarda üzərinə öhdəlik götürsə belə bunu icra etməkdən imtina edirlər, yaxud həqiqəti əks etdirməyən xəritələri verirlər. Dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq ki, işğaldan azad olunmuş ərazilərimizdə hələ də yüz minlərlə mina var və bu da insan tələfatına səbəb olur. Sakit durmaq, beynəlxalq təşkilatlardan incik və küskün formada, fəaliyyətsiz dayanmaq olmaz. Ermənistan Qarabağda işğal dövründə və ondan sonra basdırılan minalarla bağlı dəqiq xəritələri saxlamaqla beynəlxalq hüquqi aktların tələblərini kobud şəkildə pozur. Beynəlxalq humanitar hüquqa görə, işğalçı ölkə zəbt etdiyi ərazilərdə məskunlaşma siyasəti həyata keçirə, mülki insanların yaşadığı əraziləri minalaya, dağıntı işləri apara bilməz. Ermənistan sadalanan bütün hüquq normalarına arxa çevirib. Qəbiristanlığımıza kimi dağıdıb, ölülərimizin qızıl dişlərini çıxarıblar. Ermənistan tərəfi hər zamankı kimi özünün terrorçuluq siyasətini davam etdirir. Minalanmış ərazilərin xəritəsinin Azərbaycana təhvil verilməməsində əsas maraq insanlarımızın öz yurd-yuvalarına qayıdışının qarşısını almaqdır".

*"Beynəlxalq təşkilatlar vaxtında təcavüzkara təzyiq göstərsəydi, mina partlayışı nəticəsində həlak olanların sayı artmazdı"*

Çingiz Qənizadənin sözlərinə görə, regionda sülh və əmin-amanlıq istəyirik deyən beynəlxalq təşkilatlar vaxtında öz öhdəliklərini yerinə yetirsəydi, təcavüzkara təzyiq göstərsəydi, mina partlayışı nəticəsində həlak olanların sayı artmazdı: "Beynəlxalq təşkilatların işi təkcə mina partlayışı, terror hücumları, müharibələr nəticəsində həyatını itirmiş və yaralanmış şəxslərin illik hesabatını hazırlamaqdan, standart bəyanatlar verməkdən ibarət deyil axı. Sülh istəyən güclər regionda sülhə əngəl olan qüvvələrin zərərsizləşdirilməsində Azərbaycana dəstək olmaq istəmirlər. Halbuki, ermənilərin təhlükəsizliyi ilə bağlı şişirdilmiş və uydurulmuş bir təhdid müzakirə mövzusu olan kimi ard-arda bəyanatlar verirlər".

**Sabiq deputat deyib ki, bütün beynəlxalq təşkilatlar mina xəritələrinin təhvil verilməsi üçün Ermənistana təzyiq göstərməməkləri bir yana, minalanmış ərazilərin təmizlənməsi ilə bağlı da Azərbaycana dəstək göstərmirlər. Əslində, onların bu riyakarlığı bizim üçün təəccüblü hadisə deyil:** "30 ildən çoxdur biz beynəlxalq təşkilatların yeritdiyi ikili standartların şahidi olmuşuq. Ancaq bu bizi ruhdan salmamalıdır. Erməni vandalizmini özündə əks etdirən hər bir faktı aktlaşdırıb beynəlxalq təşkilatlara göndərməliyik ki, haqq davamızdan vaz keçmədiyimizi görsünlər. Əgər bu təşkilatlar regionda uzunmüddətli sülhdə maraqlıdırsa, o zaman Ermənistanın hərbi-siyasi rəhbərliyinə təzyiq göstərərək həqiqi mina xəritələrinin Azərbaycana təhvil verilməsinə zəmin yaratsınlar. Ermənilər öz öhdəliklərini yerinə yetirib, müharibə cinayətlərindən əl çəkməyənə qədər regionda uzunmüddətli sülhdən söhbət gedə bilməz".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Tıxacların qarşısı alınacaq

## İctimai nəqliyyatın idarə edilməsi və mobillik modeli hazırlanır



*"Avtobuslar üçün ayrılmış xüsusi zolaqların işlək olması şəxsi avtomobildən istifadə edənlərin bir çoxunu ictimai nəqliyyata yönəldəcək"*

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ictimai nəqliyyatın tənzimlənməsi üçün kompleks tədbirlərin görülməsini vacib sayır. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov "Report"a açıqlamasında paytaxtda və ətraf ərazilərdə tıxacların artmasının səbəbini açıqlayarkən bildirib ki, Azərbaycanda əhalinin orta sıxlığı hər kv. km-də təqribən 92 nəfər, Bakı şəhəri aqlomerasiyasında 840 nəfər/kv. km, Abşeron iqtisadi rayonu üzrə 400 nəfər/kv. km təşkil edir.**

Onun sözlərinə görə, nəqliyyat sisteminin tənzimlənməsi üçün kompleks tədbirlər görülməlidir: "İqtisadi aktivliyin, həmçinin əhalinin nəqliyyat ehtiyaclarının artması bütün dünyada, xüsusən iri şəhərlərdə və iqtisadi mərkəzlərdə tıxac probleminin yaranmasına səbəb olur. Bakı paytaxt olmaqla yanaşı, ölkəmizin həm iqtisadi, həm təhsil mərkəzidir". R.Hümmətov vurğulayıb ki, bu səbəbdən şəhər ərazisində və şəhərin giriş-çıxış yollarında ilbəil artan sıxlıq müşahidə olunur: "Bakı şəhəri daxil olmaqla Abşeron yarımadasında yaşayan əhalinin sıxlığı və onların mobilliyinin təmin edilməsi nəzərə alınaraq, inteqrasiya olunmuş nəqliyyat sisteminin qurulmasına ehtiyac var. İctimai nəqliyyatın tənzimlənməsi üçün elə bir dayanıqlı model qurulmalıdır ki, həm sərnişinlərin tələbatı ödənilsin, həm daşıyıcıların maraqları qorunsun, həm də göstərilən xidmətlərin keyfiyyəti və qiyməti əhali üçün uyğun olsun. Biz sahəvi nazirlik olaraq konseptual yanaşmanın tərəfdarıyıq. Hazırda qeyd etdiyiniz məsələnin həlli ilə bağlı aparıcı beynəlxalq konsaltinq şirkətləri cəlb olunmaqla ictimai nəqliyyatın idarə edilməsi və mobillik modeli hazırlanır. Modelin məqsədi ictimai nəqliyyatda əlçatanlığın artırılması, şəhərin daxilində mobillik sürətinin artırılması, tıxacların aradan qaldırılması və atmosferə atılan tullantıların azaldılmasıdır. Model çərçivəsində Bakının "rəqəmsal əkizi" yaradılacaq ki, bu da qərarların elmi-praktiki əsaslandırılmasını təmin edəcək. Onu da qeyd etməliyəm ki, modeldə ictimai nəqliyyat, o cümlədən dəmir yolu, metro, taksi, fərdi nəqliyyat vasitələri, eləcə də kiçik təkərli nəqliyyat vasitələri olan velosiped, skuter və samokatlar da nəzərə alınacaq. Eyni zamanda nəqliyyat məsələlərinin həlli istiqamətində görülən işlərlə paralel olaraq, Bakı şəhərinin piyada yönümlü şəhərə çevrilməsi, piyadaların hərəkəti üçün müvafiq infrastrukturun yaradılması məqsəd kimi qoyulub".

Nazir müavini hesab edir ki, görülən işlər ekoloji tarazlığın bərpa edilməsinə də xidmət etmiş olacaqdır: "Avtonəqliyyat vasitələrinin hərəkət sürəti azaldıqda SO2 tullantısının miqdarı artır, yol hərəkətinin optimallaşdırılması tədbirləri nəticəsində tıxacların aradan qaldırılması və nəqliyyat vasitələrinin hərəkət sürətinin artırılması, bütövlükdə zərərli tullantıların azalmasına səbəb olur. Qeyd etmək vacibdir ki, biz bu layihənin müsbət nəticələrinin qarşıdakı dövrdə ardıcıl olaraq şahidi olacağıq".

**Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev mövcud vəziyyət və çıxış yolları barədə fikirlərini "Şərq"lə bölüşdü:**

- Qarşıya qoyulan məqsədlər əlbəttə, müsbətdir. Doğru olaraq bildirilir ki, nəqliyyat sisteminin təkmilləşməsi üçün kompleks tədbirlər planı hazırlanmalıdır. Bu tədbirlər nədən ibarət ola bilər? İlk növbədə standartlar, qaydalar, qanunlar dəyişməlidir. Hazırda bizim malik olduğumuz nədir: bizim küçə-yol şəbəkəmiz və avtobus şəbəkəmiz var. Onların üstünlüyünü necə təmin edə bilərik, təbii ki, avtobuslar üçün ayrılmış xüsusi zolaqların işlək olmasını təmin etməklə və bu cür zolaqları artırmaqla. Belə olduğu halda ictimai nəqliyyatın hərəkəti bugünkü hərəkətdən daha çox olacaq və şəxsi avtomobildən istifadə edənlərin bir çoxunun ictimai nəqliyyata yönəlməsinə səbəb olacaq. Bu yetərlidirmi? Əlbəttə, yox. İctimai nəqliyyatın çeşidli olması təmin edilməlidir. Metro ən rahat, sürətli ictimai nəqliyyat vasitəsidir, lakin metronun tikinti sürəti çox zəifdir. Amma yerin üstündə yüngül relsli dəmiryol sisteminin yaradılması problemi kökündən həll edə bilər. Şəhərətrafı elektrik qatarları mövcuddur. Lakin bu azdır. Şəbəkənin artırılması zəruridir. Bunun üçünsə şəhərin alt mərkəzlərinin yaranmasına ehtiyac var. Şəhər ətrafından mərkəzə və mərkəzin nüvə hissəsinə doğru hərəkət təmin edilməlidir. 0-5-10-15-20 - bu radiuslar üzrə mobilliyin təminini hədəf götürsək, problem həllini tapar. Elektrik qatarları təkcə şəhər ətrafına deyil, mərkəzdən mərkəzə də hərəkət etməlidir; Yeni Günəşli - Yasamal, Binəqədi - Dərnəgül və dəniz sahili, şəhər ətrafı. Kəndlər, qəsəbələrdən şəhərə doğru hərəkəti təmin edən fərqli, çeşidli ictimai nəqliyyat növləri olmalı və onların üstünlüyü təmin edilməlidir. İctimai nəqliyyatda yüngül relsli və yükü götürə bilər nəqliyyat növlərinə üstünlük verilməlidir. Məsələn, tramvaylar, elektrik qatarları daha effektivdir, çünki daha çox sərnişin daşıyır. Həm də dayanıqlı ictimai nəqliyyat növləridir. Tramvaylar 30 il xidmət göstərə bilir, amma avtobusların 7-8 ildən sonra keyfiyyəti aşağı düşür. Parkinq sistemi də yenilənməli, zona-saat parkinq sistemi tətbiq edilməli, mərkəzdən kənarda daha ucuz qiymətlər olmalıdır. Görüləcək iş çoxdur, bunlar hamısı çeşidli islahatlar tələb edir, nədənsə başlamaq lazımdır.

**Məlahət Rzayeva**



# İranda oruc tutmayanları şallaqlayırlar

## Diplomatların ailələri isə kef məclisi qurur

**Oruc tutmayan İran diplomatları ailələrinin Londonda çəkilən görüntüləri sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub.**

Bakupost.az xəbər verir ki, sosial şəbəkə istifadəçiləri İranda sadə insanların oruc tutmadığına görə həbs olunduğu və şallaqlandığını, Londonda isə İslam Respublikası diplomatlarının ailələrinin Ramazan ayında kef məclisləri qurduqlarını bildiriblər. "Çünki ora xəlvətdir", - deyə onlar rejimdən narazılıqlarını bildiriblər.

*Qeyd edək ki, bu fotonun London yaxınlığındakı parka çəkildiyi bildirilir.*

# Nə demişəmsə, düz demişəm...

## İşdən çıxarılan baş həkim danışdı



**Xəbər verdiyimiz kimi, 1 saylı Respublika Psixiatriya Xəstəxanasının baş həkimi, Əməkdar həkim Ağahəsən Rəsulov Səhiyyə naziri Teymur Musayevin əmri ilə işdən azad olunub.**

A.Rəsulovun Əmək Məcəlləsinə əsasən, yaş həddi ilə əlaqədar olaraq tutduğu vəzifədən azad olunduğu deyilir.

Amma burda digər maraqlı məqam da var. Bildiyimiz kimi, Xətai rayonundakı 3 saylı uşaq evində qalan və həmin uşaq evi ilə bağlı şikayətini bildirən yeniyetmə Məhəmməd Hacıyev 1 saylı Psixiatriya Xəstəxanasına yerləşdirilib.

Lakin baş həkim Ağahəsən Rəsulov uşaqda psixi pozğunluğun olmadığını bildirib. Bundan bir gün sonra isə o, nazirin əmri ilə vəzifəsindən azad edilib.

Sabiq baş həkim Ağahəsən Rəsulov Bizim.Media-ya açıqlama verib.

"Səbəbini yaxşı olar ki, Səhiyyə Nazirliyindən soruşun. Bu barədə mən danışmaq istəmirəm", - deyə o bildirib.

Vəzifədən azad olmasının Məhəmməd Hacıyevlə bağlı səsləndirdiyi fikirlə əlaqəli olması ilə bağlı suala isə Ağahəsən Rəsulov belə cavab verib:

"Mən uşaq haqqında nə demişəmsə, düz demişəm. Burda nə var ki, Məhəmməd Hacıyev haqqında dediklərimi yenə də təkrarlaya bilərəm".

# Bu ay güclü maqnit qasırğası gözlənilir

## Tamamilə sağlam insanlarda belə, qan təzyiqinin yüksəlməsi halları ola bilər

**Bir müddətdir davamlı olaraq maqnit qasırğası ilə bağlı əhaliyə ciddi xəbərdarlıq edilir. Aprel ayında bir neçə zəif və bir güclü maqnit qasırğası gözlənilir.**

Aprelin 1 və 2-də müşahidə edilən 4 bal gücündəki ilk qasırğadan sonra eyni gücdə növbəti qasırğa aprelin 10 və 11-də olacaq. Daha sonra aprelin 16 və 17-də üçüncü qasırğa da 4 bal gücündə gözlənilir. Ay ərzində sonuncu və ən güclü maqnit qasırğası aprelin 20 və 21-də proqnozlaşdırılır - gücün 6 bala çatacağı gözlənilir. Maqnit qasırğaları sağlamlıq üçün potensial təhlükələrdir. Onlar Yerin maqnit sahəsində günəş alovlarının yaratdığı pozğunluqlardan qaynaqlanır. Bu cür dalğalanmalar təkcə sağlamlığımıza və rifahımıza deyil, həm də rabitə sistemlərinin işinə mənfi təsir göstərə bilər. Buna görə də alimlər onların təhlükəsini gözardı etməməyə çağırırlar.

Bu qasırğaların insanların səhhətinə zərər verəcəyi ilə bağlı xəbərlər isə əhali arasında müəyyən təşvişin yaranmasına səbəb olur.

Terapevt Nadejda Çernışeva maqnit qasırğasının damarlarda xolesterin pıtraqları və tromblar əmələ gətirdiyini açıqlayıb.

Maqnit partlayışlarının ürək-damar patologiyaları olan insanlar üçün riskli olduğunu xatırladan terapevt deyib ki, bu zaman xəstələrdə damar spazmları baş verir, ürəyin qanı qovması yavaşıyır, qan qatılaşır, arterial təzyiq oynayır. Nəticədə insanlarda baş ağrısı, sinədə sıxılma baş verir.

Damarları zəif olan, tutulmuş, eləcə də təzyiqi olan xəstələrdə qan qatılaşması sistemi pozulur.

Bu günlərdə damar içi xolesterin yığıntısı və tromb yaranması artır.

Ona görə risk qrupunda olan insanlar bu günlər evdə olsun, təzyiqi nəzarətdə saxlasın, limonlu su içsin, acı, turş, yağlı qidaları azaltsın, daha çox uzanıb istirahət etsin.



***Ağır yeməklərdən çəkinməli, bacardıqca balıq, tərəvəz yeməkləri və sıyıq yeməli, təbii antioksidantların qəbulu artırılmalıdır***

**Terapevt Leyla Quliyevanın "Şərq"ə açıqlamasına görə, meteohəssas insanlar təbiətin şıltaqlıqlarına, maqnit qasırğalarına, atmosfer havasının təzyiqinə, havanın soyuyub istiləşməsinə çox həssas reaksiya verirlər:** "İnsan təbiətlə çox sıx əlaqədə olduğu üçün təbiətdə baş verən dəyişikliklər də insan orqanizminə təsirsiz ötüşmür. Beləki, hava şəraitinin kəskin dəyişilməsi, məsələn, güclü şimal küləyinin cənub küləyiylə əvəz olunması, temperaturun kəskin artıb azalması, rütubətin artması bir qrup şəxslərin səhhətində problem yaradır. Bu insalar meteohəssas insan adlanır.

Meteohəssas insanlar daha çox ürək-damar xəstəlikləri, tənəffüs sistemi xəstəlikləri, revmatoloji sistem xəstəliklərindən əziyyət çəkirlər.

Maqnit qasırğasının təsirləri özünü əsasən bir neçə gün büruzə verir. Daha çox meteohəssas insanlarda təzyiqin birdən-birə dəyişməsi qeydə alınır. Bu müddətdə tamamilə sağlam insanlarda belə, qan təzyiqinin yüksəlməsi halları olur.

Geomaqnit qasırğası gözlənilən günlərdə Günəş şüalarının birbaşa təsiri altında, açıq havada olmamağı, saat 10-dan 17-18-ə qədər bayıra çıxmamağı, sərin yerdə vaxt keçirməyi, gün ərzində 2 litrədək maye qəbul etməyi tövsiyə edilir. Təzyiq yüksəlməsi, ürək tutmaları, başqa hər hansı narahatlıq yaranarsa, mütləq həkimə müraciət etmək lazımdır".

Həkimin müşahidəsinə görə, hipertoniklərin qan təzyiqi qalxır, hipotoniklərdə isə əksinə, düşür. Bu xoşagəlməzliyin qarşısını almaq üçün hipertoniklərə çoxlu su içməyi və duzdan istifadəni azaltmağı tövsiyə edirlər: "Çünki duz orqanizmdə mayeni saxlayır və təzyiqin artmasına səbəb olur. Hipotoniklərə isə eleuterokokk və çin cır limonu (limonnik) məcunundan istifadə məsləhət görülür.

Eyni zamanda nikotin qəbulunu dayandırılmalıdır. Xüsusən ürək xəstələri əllərinin altında "fövqəladə vəziyyət" üçün dərman saxlamalıdırlar. Səhər çarpayıdan qəfil durmamalıdırlar. Trombların yaranmasının qarşısını almaq üçün aspirin qəbul edilməlidir. Yuxusuzluq, nevrozluq, yüksək həyəcan halında - evkalipt, valerian, melissa, damotu məcunundan və aloye şirəsindən istifadə etmək olar.

Qasırğa dövründə ağır yeməklərdən çəkinməli, bacardıqca balıq, tərəvəz yeməkləri və sıyıq yeməli, təbii antioksidantların qəbulu artırılmalıdır. Otlarla, yağlarla vanna, yaxud kontrast duş qəbul etmək olar. Meteohəssas insanlar həmçinin belə günlərdə yaxşı yatmalı, fiziki və əqli yüklənmədən qorunmalıdırlar, idmandan, mağazalarda uzun-uzadı gəzməkdən və yaxud bağ-bostan işlərindən çəkinməlidirlər".

**Şəymən**

# Tez-tez qrip olanlar mütləq vaksin olunmalıdır

## Uşaqlar, hamilə qadınlar, yaşı 65-dən yuxarı insanlar daha çox risk altındadır



**İmmunitetin gücləndirilməsi infeksiyadan qorunmaq üçün ən uğurlu vasitədir.**

Payız və qış ayları uşaqdan böyüyə hamı tez-tez qripə yoluxur, soyuqdəymədən əziyyət çəkir. Çox vaxt da dərman içmədən xəstəlikdən yaxa qurtarmağın mümkün olmadığını düşünürlər. Halbuki immun sistemini qorumaq və gücləndirməklə müəyyən xəstəliklərdən xilas olmaq mümkündür.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Zakir Quliyevin sözlərinə görə, tez-tez qrip olan adamlar mütləq oktyabr, noyabr, dekabr aylarında vaksin olunmalıdırlar: "Dərman preparatları ilə də immuniteti gücləndirmək olar, lakin bu halda mütləq həkim müayinəsindən keçmək lazımdır. İmmun sistemini gücləndirməyin ən yaxşı yolu düzgün qidalanmaq, yuxu rejiminə fikir vermək, aktiv həyat keçirməkdir. Multivitaminlərlə də orqanizmi gücləndirmək olar, lakin bu, həkim nəzarəti olmadan edilməməlidir".

Pediatr Nigar Abdullayevanın "Şərq"ə açıqlamasına görə, qrip ən geniş yayılmış respirator virus infeksiyasıdır. Yoluxma xəstə insanla kontakt zamanı asqırma, öskürmə, əllə kontakt yolu ilə keçir: "Qrip hər il fəsli olaraq epidemiyalar yaradır. Xəstələnənlərin çox hissəsini uşaqlar və yeniyetmələr təşkil edir. Uşaqlarda immun sistem zəif olduğu üçün qrip onlarda sinüzit, otit, pnevmoniya, bronxit, ensefalit və traxeit kimi  ağırlaşmalarla keçir. Qripin müalicəsi simptomatikdir. Burun tənəffüsü bərpa etmək üçün burun damcıları, qızdırma varsa hərarət salıcılar, öskürək varsa ona uyğun dərmanlar, pnevmoniya, otit kimi ağırlaşmalarda antibiotiklər təyin olunur. Həmçinin bol maye qəbulu tövsiyə olunur.

Qripə qarşı peyvənd də kifayət qədər effektivdir.  Xroniki ağciyər xəstəlikləri olanlar, bronxial astma xəstələri, kistik fibroz, şəkərli diabet xəstələri, ürək xəstəliyi, revmatik, qan xəstəlikləri olanlar qripi xüsusilə ağır keçirirlər. Bu xəstəliklərdən əziyyət çəkənlər mütləq şəkildə hər il qrip peyvəndi olunmalıdır.

Ümumiyyətlə isə bir həkim olaraq tövsiyə edirəm ki, qripdən qorunmaq üçün həm uşaqlar, həm də böyüklər qrip peyvəndi  olunsun. Hətta Amerikanın CDC təşkilatı (Bizim Sanitar Epidimioloji Stansiyamızın analoqu olan qurum) tövsiyə edir ki, qrip peyvəndi yaşı 6 aydan yuxarı bütün insanlara vurulmalıdır .

Bu peyvənd qrip sezonunun əvvəlində, yəni oktyabr ayında vurulmalıdır. Əgər hər hansı səbəbdən peyvənd gecikibsə, qrip mövsümünün istənilən ayında vurula bilər. Qrip peyvəndi uşaqlar, hamilə qadınlar, yaşı 65-dən yuxarı insanlar, tibb işçiləri və astma, allergiya, diabet kimi  xroniki xəstəliyi olan insanlar üçün xüsusən zəruridir.

**Həkim-infeksionist Vasif Əliyev isə sosial media hesabında qrip peyvəndinin əhəmiyyətindən yazıb. Onun sözlərinə görə, qripə yoluxmamaq üçün əl təmizliyi, sağlam qidalanma, mövsümə görə geyinmə kimi fərdi tədbirlərin görülməsi ilə yanaşı, xüsusilə də risk altında olan insanlar üçün ən təsirli qorunma yolu peyvənddir:** "Eyni zamanda qripin ən ciddi ağırlaşması sayılan və ən çox ölümün səbəbi olan pnevmoniyadan da qorunmaq üçün həkimin nəzarəti altında pnevmokok peyvəndi də vurulmalıdır.

Qrip  peyvəndi 6 aydan böyük hər kəsə vurulmağı tövsiyə olunur. Ancaq daha çox risk qruplarındakı insanlara və onlarla yaxın təmas edənlərə, həmçinin tibb işçilərinə vurulmalıdır.

Peyvənd normalda oktyabr ayında vurulmalıdır. Ancaq risk qrupunda olan şəxslərə daha əvvəl peyvənd vurulmayıbsa, fevral ayına qədər peyvənd vurdura bilərlər".

V.Əliyevin sözlərinə görə, qrip xəstəliyinin keçirilməsi və ya peyvəndin vurulmasından sonra yaranan immunitet virusunun strukturunda yaranan dəyişikliklər səbəbinə bağlı olaraq ömürlük deyil: "Peyvənd olunan və ya xəstəliyi keçirən insanlar bir sonrakı qrip mövsümündə xəstəliyə təkrar yoluxa bilirlər. Bundan başqa, virusun strukturu dəyişildiyi üçün, bu dəyişiklikləri də nəzərə alaraq peyvəndin qoruyuculuğunu sabit saxlamaq üçün peyvəndin tərkibi hər il yenilənir. Bu səbəblə hər mövsüm təkrarlanan qripdən qorunmaq üçün hər il peyvənd vurulmalıdır".

*İnfeksionist onu da qeyd edib ki, yumurtaya qarşı alergiyası olanlara və ya peyvəndə qarşı daha əvvəl ciddi  allergiya keçirən xəstələrə qrip peyvəndi vurulmamalıdır:* "Qrip peyvəndinin ciddi əlavə təsirinin olma ehtimalı digər peyvəndlərdə olduğu kimidir. Peyvəndin böyüklərdə ən çox görülən əlavə təsiri inyeksiya  yerində ağrı və həssalıqdır. Bu şikayətlər 10-64 faiz görülsə də, bir-iki gün içində peyvəndə bağlı temperatur, baş ağrısı, əzələ ağrısı, halsızlıq kimi sistemik əlamətlərin görülməsi, digər peyvənd və ya dərman tərkibli olmayan (plasebo) inyeksiyalardan çox deyildir. İİV3 (tərkibində 3 ayrı influenza virus tipi mövcud olan 3 valan peyvənd) və ya  İİV4 (tərkibində 4 ayrı influenza virus tipi mövcud olan 4 valan peyvənd) kimi istifadə olunan qrip peyvəndləri inaktiv (cansız) virus peyvəndi  olduğundan peyvəndə bağlı qripin olması mümkün deyil. Peyvənd iflic yaratmaz, sonsuzluğa səbəb olmaz və  hamilələrdə də rahatlıqla istifadə edilə bilir".

**Şəymən**



# Təyyarə bileti ilə bağlı Gürcüstan modeli əsas götürülməlidir

## Bizdə də rəqabət mühiti yaradılmalı, daha ucuz fəaliyyət göstərən aviaşirkətlərə yol açılmalıdır

**"Azərbaycan Hava Yolları" QSC (AZAL) ilə bağlı aparılan islahatların əsas hədəflərindən biri məhz qiymətlərin optimallaşdırılmasıdır".**

Bunu Azərbaycan rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov deyib. R.Hümmətov hesab edir ki, AZAL-ın qiymətləri rəqibləri ilə müqayisədə o qədər də baha deyil.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Fuad İbrahimov bildirib ki, optimallaşdırma hər iki tərəfin - həm təklif edənin, həm də digər tərəfin maraqlarına uyğun şəkildə həyata keçirilməlidir:** "Qiymətlərin optimallaşması ilə bağlı fikirlər eşitməkdən yorlmuşuq. İllərdir eyni sözləri eşidirik, amma bu sahədə hər hansı bir tədbirlərin görüldüyünə şahid olmamışıq".

*Ekspert qeyd edib ki, bizim qarşımızda Gürcüstan kimi bir model mövcuddur:* "Gürcüstanda əsas hava limanı Tbilisi hava limanı hesab olunur. Orada da qiymətlər olduqca münasibdir. Buna baxmayaraq, daha ucuz qiymətə fəaliyyət göstərən aviaşirkətlər də mövcuddur. Orada biletin baza qiyməti və göstərilən xidmətlər daha ucuz başa gəlir. Gürcüstanda Kutaisidən dünyanın müxtəlif ölkələrinə 30-50 avroya uçuşlar baş tutur. Bizdə isə göstərilən xidmətlərin qiymətlərimizlə münasib olduğunu irəli sürürük. Lakin qeyd edim ki, orada göstərilən xidmətlər bizdə göstərilən xidmətlərdən heç də geri qalmır".

**F.İbrahimov vurğulayıb ki, bizim hava limanımız olduqca komfortlu və gözəldir. Bunun üçün dövlətimizə təşəkkür düşür:** "Ümumiyyətlə, bu sahədə dövlətə irəli sürülən istənilən təklif lazımi dərəcədə dəstəklənir, qiymətləndirilir. Gürcüstan modelinə uyğun olaraq bizdə də ikinci daha ucuz fəaliyyət göstərən aviaşirkətin yaradılması təklif edildi. Bizim ölkədə də buna oxşar şəkildə "Buta" ikinci dərəcəli aviaşirkət olaraq fəaliyyətə başladı. Lakin "Buta"da da qiymətlər heç də əhalinin cibinə uyğun deyil. 2019-cu ildə Kutaisi üzərindən həyata keçirilən uçuşların 35 faizini azərbaycanlı sərnişinlər təşkil ediblər. Bu göstəricilərin hamısı ölkədən kapital axını deməkdir. Ölkədəki aviaşirkətləri seçənlər isə məcburiyyət qarşısında qaldıqları üçün bu seçimi edirlər. Odur ki, bu optimallaşmanı konkret zaman və məkan çərçivəsində görməyənə kimi mən buna inanmayacam", - deyə F.İbrahimov vurğulayıb.

**Nihad Kərimli**


**Elan**

"The European Azerbaijan Society"  təşkilatının Azərbaycan Respublikasındakı nümayəndəliyinə məxsus olan Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.


# Açıq  hərracın keçirilməsinə dair elan

**"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının 03/04/2023 №-li, 03.04.2023-cü tarixli sifarişinə əsasən 1 ədəd "LEXUS GS250" markalı, 99-AK-806 dövlət qeydiyyat nişanlı minik avtomibili (Sedan tipli, 2014-cü il buraxılışlı, ağ rəngli, BAN JTHBF1BL005011005, mühərrik №0998566)açıq hərracda satılmalıdır.**

İlkin hərrac açıq auksion qaydasında keçirilməklə  13 aprel2023-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir.

Hərrac Bakı şəhəri, Yasamal rayonu Kazım Kazımzadə 123 ünvanında keçiriləcəkdir.

Əmlakın ilkin satış qiyməti 37.000 (otuz yeddi min) manat məbləğində müəyyənləşdirilmişdir.

Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 1.850 (bir min səkkiz yüz əlli) manat məbləğində beh ödənilməlidir.Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək

hərrac sifarişçisinin hesablaşma hesabına ödənilməlidir.

Hərracın sifarişçisi : "İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı

Hesab №: AZ02HAJCNC-RAZN10010250157001

VÖEN:1302724701

Bank adı: ASC "Xalq Bank" Baş filialı

Kodu:501026

VÖEN: 2000296061

Müxbir hesab: AZ24NABZ01350100000000067944

S.W.I.F.T. Bik: HAJCAZ22XXX

Eyni zamanda qeyd olunur ki, 500 (beş yüz) manat məbləğində iştirak haqqı hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının  hesabına ödənilməlidir.

Hərracın təşkilatçısı: "Əmlak Hərrac Mərkəzi" MMC

VÖEN : 1301654721

H/h: AZ47PAHA40060AZNHC0100462560

Bank:"PAŞA Bank" ASC

VÖEN: 1700767721

Kodu: 505141

M/h: AZ82NABZ01350100000000071944

S.W.I.F.T: PAHAAZ22

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla;

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**Qeyd:**Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır:

*Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);

* Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd;

*Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

*Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

*Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

*Şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

*Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beh məbləği geri qaytarılır.

*Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2  (iki) bank günü müddətində geri qaytarılır;

*Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

**Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" nin depozit hesabına köçürməlidir.**

**Açıq hərrac Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 415-ci maddəsinin və "İcbari Sığorta Bürosu" HŞİ-nin əsas vəsaitlərinin açıq hərracda satışı üzrə sifarişlərin verilməsi,hərracın təşkili, keçirilməsi və rəsmiləşdirilməsinin prosedur Qaydaları"nın tələblərinə uyğun həyata keçiriləcəkdir.**

**Hərracın təşkilatçısı**
**"Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Kazım Kazımzadə 123.**
**Tel: (+99450) 210-66-47**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**
**Sifarişçinin əlaqə telefonları: 077-712-07-77 ; 055-213-51-35**

**Atomobillərə baxış keçirmək üçün ünvan:**
**Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti. 2 A (Şokolat tower) 1-ci mərtəbə**
**"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı**

**Daha ətraflı 055 213 51 35 (Ceyhun Paşayev) nömrəsi ilə əlaqə saxlamağınız xahiş olunur.**


Təsisçi və baş redaktor:  Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor:  Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində  qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks:  AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 850



## 5-ci dəfə evlənirdi, olmadı

92 yaşlı media kapitanı aşiq olmaqdan qorxurdu

**Böyük Britaniyada "Times" və "Sun" qəzetlərinin də daxil olduğu media imperatorluğunun sahibi, 92 yaşlı Rupert Murdok nişanlısı, 66 yaşlı Ann Lesli Smit ilə bu yaz aylarında rəsmi nikaha daxil olmağı planlaşdırırdı.**

Lakin gözlənilən toy məclisi ləğv edilib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, nikah mərasiminin ləğvinə səbəb cütlüyün ayrılmasıdır. Bundan əvvəl "Nyu York Post"a verdiyi müsahibədə Rupert Murdok 66 yaşlı A.L.Smitə "Asscher"dən tək qaşlı brilliant üzük hədiyyə edərək evlənmək təklifində bulunduğunu bildirmişdi. R.Murdok 4 dəfə evil olub. Dördüncü həyat yoldaşı Jerri Halldan təxminən 1 il əvvəl boşanıb. R.Mudrok bir daha evlənmək barədə ciddi düşünəcəyini desə də, xanım Smitlə evliliyinin sonuncu ola biləcəyini də deyib. "Çox gərgindim. Aşiq olmaqdan qorxurdum. Amma bunun son evlilik olacağını bilirəm. Belə olsa, yaxşıdır. Xoşbəxtəm". Ann Lesli dünyasını dəyişmiş sənətçi və iş adamı Çester Smitin keçmiş həyat yoldaşıdır. Ann Lesli isə Murdokla münasibətlərini "bu, Tanrının bir lütfüdür" şəklində izah edərək "biz eyni dildə danışırıq!" söyləmişdi. Amma göründüyü kimi, "eyni dildə danışanlar" da qısa zamanda ayrıla bilir. Cütlük yolların ayırmağa qarşılıqlı qərar verib. Və yaz aylarına planlaşdırılan toy ləğv edilib.

Məlahət

## Suriyalı qaçqın Almaniyada şəhər meri seçilib

Riyan Alşebl 55,41 faiz səs toplayaraq iki almaniyalı namizədi geridə qoyub



**2015-ci ildə qaçqın kimi Almaniyaya gələn suriyalı Riyan Alşebl ölkənin cənub-qərbində yerləşən Baden-Vyurtemberq vilayətində mer seçkilərində qələbə qazanıb.**

CNN telekanalı xəbər verir ki, səkkiz il öncə doğulduğu Əs-Suveydə şəhərini tərk etmək məcburiyyətində qalan 29 yaşlı Riyan Alşebl seçkilərə Ostelshaym bələdiyyəsindən müstəqil namizəd kimi qatılıb. O, aprelin 2-də keçirilən seçkilərdə 55,41 faiz səs toplayaraq iki almaniyalı namizədi geridə qoyub. Baden-Vyurtemberq bələdiyyələri assosiasiyası Riyan Alşeblin mer postuna namizədliyini irəli sürən və seçkilərdə qalib gələn Suriya əsilli ilk şəxs olduğunu bildirib. Yeni seçilən mer iyun ayında səlahiyyətlərinin icrasına başlayacaq. Riyan Alşebl 21 yaşında vətənini tərk edərək Türkiyəyə, oradan rezin qayıqla Yunanıstanın Lesbos adasına, sonra isə Almaniyaya gəlib. "Yaşıllar" partiyasının üzvü olan suriyalı hazırda Almaniya vətəndaşıdır.

## Toy hədiyyəsi partladı

**Hadisə zamanı 2 nəfər ölüb**



**Hindistanda yeni evlənmiş cütlüyün evinə göndərilən hədiyyə qutusu partlayıb. Məlum olub ki, hədiyyə qutusunun içinə partlayıcı yerləşdirilibmiş. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, hədiyyə qutusunun partlaması nəticəsində bəy və qardaşı həlak olub. Hədiyyənin gəlinin keçmiş sevgilisi tərəfindən göndərildiyi ehtimal edilir. Hədiyyə kiçik olmayıb, ev kinoteatrı imiş. Hadisə Kattisqarx əyalətinin Kabirdham bölgəsində baş verib. Partlama nəticəsində 18 aylıq körpə və daha 4 nəfər də yaralanıb. Partlayıcı elektrik şəbəkəsinə qoşulma anında baş verib. Evin divarları, damı da uçulub. Araşdırma aparan əyalət polisi hədiyyənin toy evinə gəlinin keçmiş sevgilisi tərəfindən göndərildiyini müəyyənləşdirib. Bu şəxs artıq bir dəfə evli olduğu üçün ailə qızlarının onunla evlənməsinə razı olmayıb. Və keçmiş sevgili də gəlinə belə bir qanlı hədiyyə göndərib. Şəxs polis tərəfindən yaxalanıb.**

Məlahət

## "Mələk geri döndü"

**Adriana Lima kamera qarşısına keçdi**



**Üçüncü övladı dünyaya gəldikdən sonra bir müddət iş həyatından uzaqlaşan braziliyalı məşhur model Adriana Lima yenidən kamera qarşısına çıxıb. Model karyerasında önəmli yer tutan geyim markası "Viktoria Sekret"in reklamına çəkilib. Uzun fasilədən sonra Adriana Lima dekabr ayında podiuma çıxmışdı və izləyicilərini qüsursuz bədən forması ilə məftun etmişdi. Bu dəfə isə o, məşhur geyim markasının libaslarını reklam edib. Sevənləri onun "Viktoria Sekret" üçün kameralar qarşısına keçməsini "mələk geri döndü" sözləri ilə ifadə ediblər. Sarı şifon libas geyinən Adriana Lima markanın "Heavenly" adı verilən ətrini reklam edib. Adriana Lima həmçinin FİFA-nın "qlobal tərəfdar elçisi"dir. A.Lima "Viktoria Sekret" haqqında "bu marka artıq mənim ailəm kimidir", söyləyib və yenidən podiuma dönməsindən məmnunluğunu ifadə edib.**

Məlahət



# 264 saat yatmadı

## Son sözləri hamını şoka saldı

**İki dost "yuxusuzluq təcrübəsi" keçirmək qərarına gəlib. Püşk atıblar - kim oyaq qalacaq, kim baş verənləri qeydə alacaq. Yuxusuzluğun 11-ci günü mənzərə tamamilə dəyişib. Bütün dünyanın anbaan təqib etdiyi ağlasığmaz hadisə barədə "Milliyet.com" material dərc edib. 1963-cü ildə ABŞ-də baş vermiş bu nadir hadisə yuxusuzluqla bağlı bütün gerçəkləri ortaya çıxarıb. 17 yaşlı Randi Qardner sinif yoldaşı Brus Makallisterlə yuxusuzluğu təcrübədən keçirmək qərarına gəliblər.**

Püşkatmada oyaq qalmaq Randiyə qismət olub. Sinif yoldaşı isə baş verənləri izləyib. Randi 264.4 saat ərzində heç yatmayıb, oyaq qalaraq dünyada ən uzun müddət yuxusuz qalmaq rekorduna imza atıb. Yeniyetmələrin istəyi uzun müddət yuxusuz qalmağın nələrə səbəb ola biləcəyini öyrənmək idi. İlk 2 gündə Randinin başı hərlənib və dili dolaşıb. Getdikcə diqqəti dağılmağa başlayan gəncin vəziyyəti ağırlaşıb. Onda qarabasmalar başlayıb. Əsəbi hala gəlib. Ən sadə məsələlərə görə əsəbiləşib, özünü idarə etmədə çətinlik çəkib. Qardner adətən asanlıqla söylədiyi sözləri deyə bilməyib. 72 saatdan sonra düşünmə qabiliyyətini itirib və artıq heç bir şeyə reaksiya verə bilməyib. Qardner, yatmamaq üçün ən müxtəlif vasitələrə əl atıb. Bolinq və basketbol oynayıb, özünü nəyləsə məşğul etmək istəyib, lakin artıq bunları bacarmayıb. Yuxusuzluğun 8-ci günündə həyat funksiyalarını yerinə yetirməyəcək hala gəlib. Yemək qəbul edə bilməyib, yaddaş pozuntuları yaşayıb. R.Qardner təcrübənin son günündə mətbuat konfransında bu sözləri deyib: "Yuxusuz qaldığınızda nələrin baş verə biləcəyini isbatlamaq istədim. Bu rekorda imza atacağımı və bunun mənfi təcrübə olmayacağını düşündüm". R.Qardner, 11 gün yuxusuz qaldıqdan sonra 1 gecə rahat yatıb və həyat funksiyaları bərpa olunub. Mütəxəssislərsə uzun müddət yuxusuz qalmağı orqanizm üçün çox təhlükəli hesab edir, normal yuxunun insan sağlamlığı üçün əvəzsiz olduğunu bildirir.



Məlahət Rzayeva



# Elm adamları yeni rekorda imza atıblar

## Okeanın 8336 metr dərinliyində yeni balıq növü aşkarlandı

**Elm adamları bu günlərdə 8 kilometrdən çox dərinlikdə üzən balığı lentə alaraq, ən dərində yaşayan balıqlar barədə yeni rekorda imza atıblar.**

Azərtac xarici KİV-lərə istinadla xəbər verir ki, Yaponiya sahillərində, İzu-Oqasavara çökəkliyinin yaxınlığında 8336 metr dərinlikdə üzən Pseudoliparis cinsinin naməlum növü alimlər tərəfindən indiyə qədər görülmüş, okeanın ən dərinliyində yaşayan balıq növüdür.

Bəs heyvanlar okeanlarımızın qaranlıq dərinliklərində sağ qalmağa necə uyğunlaşırlar?

Okeanın dərinliklərinə birbaşa günəş işığı düşmür və buna görə də canlılar günəş enerjisini şəkərə çevirmək üçün fotosintezə etibar edə bilməzlər. Bunun əvəzinə onlar okean dibindəki hidrotermal dəliklər ətrafında baş verən kimyəvi reaksiyalardan çıxan enerjidən istifadə edərək şəkər yaratmaq üçün kemosintezdən istifadə edirlər. Onlar dəniz dibindən çıxan kimyəvi maddələr hesabına yaşayırlar. Dərinlikdəki dəniz balıqları da aşağı oksigenli mühitdə yaşamaq üçün uyğunlaşırlar. Bütün bu uyğunlaşmalar canlılara okeanın dərinliklərindəki qaranlıq uçurumda, planetimizin ən sərt mühitlərindən birində inkişaf etməyə imkan verir.





*Qeyd edək ki, indiyədək kameraya düşən ən dərin balıq rekordu 2014-cü ildə Mariana çökəkliyində təxminən 8200 metr dərinlikdə aşkar edilən Mariana ilbiz balığı növünə (Pseudoliparis swirei) məxsusdur.*

## Bu meyvə infarktın qarşısını ala bilər

Alma aşağı glisemik indeksə malikdir və eyni zamanda lif ehtiva edir



**Damarlarda artıq xolesterol təhlükəli nəticələrə səbəb ola bilər. Damarların tıxanması və ürək-damar xəstəlikləri riski daha da artır.**

"Medicina" xəbər verir ki, son araşdırmaya görə, alma tərkibindəki pektin sayəsində normal xolesterol səviyyəsini saxlamağa kömək edir.

Səhv qidalanma çox vaxt "pis" xolesterinin yüksək səviyyəsinin səbəbi olduğundan, həkimlər pəhrizinizi və həyat tərzinizi dəyişməyi məsləhət görürlər. Pəhrizə bol lif əlavə etmək vacibdir. Bədənə daxil olduqdan sonra xolesterolu qan dövranına keçməzdən əvvəl xaric edir, onun çöküntü yaratmasının qarşısını alır. Alma aşağı glisemik indeksə malikdir və eyni zamanda lif ehtiva edir. Qidaların glisemik indeksi nə qədər aşağı olarsa, bədəndə bir o qədər az insulin yüksəlir. İnsulin nə qədər aşağı olarsa, xolesterin də bir o qədər aşağı düşür. Harvard Universitetinin araşdırması göstərir ki, bir çox müxtəlif qidalar yüksək lif tərkibinə görə xolesterolu aşağı salır, lakin ən yaxşı xolesterolu salan xüsusiyyətlərə malik olan tərkib hissəsi almalardır. Bu komponent pektin adlanan həll olunan lifin xüsusi növüdür.

*Bu növ alma yalnız xolesterinin səviyyəsini aşağı salmağa kömək etmir, həm də bağırsaqların işini tənzimləyir, bədəndən toksinlərin çıxarılmasına kömək edir.*

## ÜST-dən həyəcan təbili: təhlükəli vəziyyət yaranıb

Xəstəlik müalicə olunmazsa, ölümcül ola bilər



**Ümumdünya Səhiyyə Təşkilatı Afrikada vəba hallarının təhlükəli vəziyyət yaratdığını açıqlayıb.**

Bakupost.az xəbər verir ki, Nigeriyada vəba epidemiyasından ölənlərin sayı 32-yə yüksəlib. Ölkədə təmiz suyun olmaması ilə yanaşı, səmərəsiz tibbi müdaxilə xəstəlik və ölüm riskini artırır. Həmçinin, malyariya, poliomielit, tif və meymun çiçəyi kimi epidemik xəstəliklərə də tez-tez rast gəlinir. "Vibrio" bakteriyasının törənən, qida və su ilə yoluxan vəba orqanizmdə şiddətli ishal və susuzluğa səbəb olur. Xəstəlik müalicə olunmazsa, ölümcül ola bilər.